RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 188 (9067) CÜMƏ, 2 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan-Özbəkistan əlaqələri xalqlarımızın qardaşlığından, tarixi dostluğundan qaynaqlanır



### Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Son dövrlərdə qardaş Özbəkistan Sizin rəhbərliyiniz ilə böyük inkişaf yolu keçmişdir. Dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi yüksəlişi, beynəlxalq və regional təşkilatlar çərçivəsində səmərəli fəaliyyəti və dünya miqyasında nüfuzunun gündən-günə artması Sizin liderliyiniz, müdrik və uzaqgörən siyasətiniz nəticəsində mümkün olmuşdur.

Azərbaycan-Özbəkistan dövlətlərarası əlaqələri xalqlarımızın qardaşlığından, tarixi dostluğundan və ortaq mədəni köklərə bağlılığından qaynaqlanır. Bu xoş ənənələr və möhkəm təməllər üzərində qurulan çoxşaxəli əməkdaşlığımızın, qarşılıqlı inam və etimada əsaslanan strateji tərəfdaşlığımızın bu gün müvəffəqiyyətlə inkişaf etməsi və genişlənməsi məmnunluq doğurur. Eyni zamanda beynəlxalq təsisatlar çərçivəsində uğurlu işbirliyimizi və qarşılıqlı dəstəyimizi xüsusi qeyd etmək istəyirəm.

Əminəm ki, Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq əlaqələri və qarşılıqlı maraq doğuran əməkdaşlıq xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və daha da dərinləşəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

### Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət!

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Respublikası ölkənizlə İslam həmrəyliyi, qarşılıqlı dəstək və etimad kimi sağlam təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq əlaqələrinə böyük önəm verir. Ötən onilliklər ərzində ikitərəfli münasibətlərimizin yüksələn xətt üzrə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Dövlətlərarası əlaqələrimizin möhkəmlənməsində Sizin şəxsi töhfənizi xüsusi vurğulamaq istəyirəm.

Bu gün aramızda mövcud olan yüksəksəviyyəli siyasi dialoq iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığımız ilə müşayiət olunmaqdadır. OPEC+ çərçivəsində işbirliyimizin səviyyəsi təqdirəlayiqdir. Eyni zamanda bərpaolunan enerji və investisiya sahələrində ölkələrimizin səmərəli birgə fəaliyyəti bizi sevindirir. Dost ölkənizin "Masdar" şirkəti tərəfindən "Qaradağ Günəş - Elektrik Stansiyası"nın inşası iqtisadi əlaqələrimizin şaxələndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Hesab edirəm ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında bütün sahələrdə əməkdaşlığın inkişafı üçün əlverişli şərait mövcuddur. Əminəm ki, bu imkanlardan istifadə edərək birgə səylərimizlə ənənəvi dostluq münasibətlərimizin möhkəmlənməsinə və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin daha da genişlənməsinə nail olacağıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Birləşmiş Ərəb Əmirliklərinin xalqına daim rifah və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

### Slovakiya Respublikasının Prezidenti zati-aliləri xanım Zuzana Çaputovaya

Hörmətli xanım Prezident!

Slovakiya Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

İnanıram ki, Azərbaycan-Slovakiya əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Slovakiya xalqına daim rifah və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

# Azərbaycan-İtaliya münasibətlərində yeni səhifə

## Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri

### Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarella ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Romanın Kuirinale Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

→ 5

### Azərbaycan Avropa İttifaqının və İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır



→ 5

## Qalibin üstünlüyü



### Sülh müqaviləsi İlham Əliyevin irəli sürdüyü və İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında hazırlanacaq

Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən növbəti - dördüncü görüş yenə də qalib komandan kimi İlham Əliyevin diplomatik üstünlüyü ilə yadda qaldı. Əvvəlki görüşlərdə olduğu kimi, yenə də Brüsseldə "Qarabağ", "Minsk qrupu", "status" ifadələrinin işlədilməməsi sülh gündəliyində rəsmi Bakının maraqlarının tam şəkildə təmin olunduğunu bir daha təsdiqlədi.

Yəni Brüsseldəki danışıqlarda erməni tərəfinin müqavimət göstərməsinə və real nəticələrin əldə olunmasının qarşısını almaq cəhdlərinə baxmayaraq, İlham Əliyev Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticə əldə etdi.

→ 6

### İtaliyadakı səfirliyimizin yeni binasında Azərbaycan Mədəniyyət Mərkəzi də fəaliyyət göstərəcək



Sentyabrın 1-də Romada Azərbaycan Respublikasının İtaliya Respublikasındakı səfirliyinin yeni binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı səfirliyin həyətində ağac əkdi.

Sonra Prezident İlham Əliyev səfirliyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Daha sonra Azərbaycan Prezidenti yeni binada yaradılan şəraitlə tanış oldu.

Prezidentin köməkçisi Anar Ələkbərov və Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdilər.

→ 2

### İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi



Sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib.

→ 3-4

# Azərbaycan-İtaliya münasibətlərində yeni səhifə

**Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri**

## İtaliyadakı səfirliyimizin yeni binasında Azərbaycan Mədəniyyət Mərkəzi də fəaliyyət göstərəcək





*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı birinci xanım Mehriban Əliyeva ilə Roma şəhərində səfirliyimiz və onun tabeliyində Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış olub, binanın əsaslı təmiri ilə bağlı tapşırıq və tövsiyələrini veriblər.

Bildirilib ki, ötən əsrin 40-cı illərində inşa edilmiş bina diplomatik nümayəndəliklərin yerləşdiyi Nomentano-Villa Torlonia ərazisindəki Via Giovanni Battista De Rossi, 27 ünvanındadır.

Binanın 1-ci və 2-ci mərtəbələri Azərbaycan Mədəniyyət Mərkəzi, 3-5-ci mərtəbələri isə səfirlik üçün nəzərdə tutulub.

Dünyanın ən zəngin tarixi irsinin yerləşdiyi Romada Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin təbliği istiqamətində atılan ən mühüm addımlardan biridir və dünyada multikulturalizmin beşiyi sayılan Azərbaycanın ən yüksək səviyyədə tanıdılmasına xidmət edir. Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycanın dünya miqyasında tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirdiyi ölkələr arasında İtaliya xüsusi yerə malikdir. Romada Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin zəngin tarixi-mədəni irsinin tanıdılmasına, Azərbaycan və İtaliya arasında mədəniyyət, elm, təhsil, humanitar sahələrdə daha səmərəli fəaliyyətin həyata keçirilməsinə geniş imkanlar açacaq.





Mədəniyyət Mərkəzinin daxili tərtibatında Azərbaycanın dövlət rəmzlərindən, milli sənətkarlıq elementlərindən, o cümlədən şəbəkədən istifadə edilib. Mərkəzin müxtəlif ekspozisiya zallarında Azərbaycan tarixini əks etdirən eksponatlar təqdim olunur. Qədim silahlar, misgərlik məmulatları, xalça sənətinin nümunələri, zinət və bəzək əşyaları, milli geyim və aksesuarlar da daxil olmaqla bütün eksponatlar Azərbaycanın qədim, zəngin tarixindən və mədəniyyətindən xəbər verir. Mərkəzdə müxtəlif tədbirlərin və görüşlərin keçirilməsi üçün hər cür imkan yaradılıb.

Azərbaycan xalçaları mərkəzdəki ekspozisiyanın ən qiymətli incilərinin sırasındadır. Milli xalçaçılığımızın müxtəlif məktəblərinin nümunələrinin təqdim edildiyi mərkəzdə qədim xalça və xalça məmulatlarının geniş çeşidi sərgilənir. Burada Azərbaycan xalçaçılıq məktəblərinin tarixi və keçdiyi inkişaf yolları barədə italyan dilində məlumat verilir. Bundan başqa, Azərbaycan miniatürləri, ölkəmizdə qədimdən yaranıb formalaşan rəssamlıq sənəti - miniatür məktəbi barədə ətraflı məlumat verilir. Zinət və müxtəlif bəzək əşyalarının, xalq incəsənətinin bütün istiqamətlərinə dair nümunələrin, taxta üzərində oyma sənətinin təqdim olunduğu mərkəzin ekspozisiyasında Azərbaycan milli geyimləri də diqqəti cəlb edir.

Azərbaycan Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondu tərəfindən italyan dilində nəşr olunmuş Azərbaycanın mədəniyyəti, incəsənəti, sənətkarlığı, qayaüstü rəsmləri, miniatür sənəti, milli musiqimiz, zərgərlik məmulatları, xalçalar ilə bağlı kitablar nümayiş etdirilir. Mərkəzdə həmçinin Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, xarici siyasəti ilə bağlı son illər İtaliyada nəşr edilmiş kitablar da təqdim olunur.

Prezident İlham Əliyev mərkəzin açılışı münasibətilə təşkil edilən "Mənim Azərbaycanım" adlı rəsm sərgisi ilə də tanış olub. Sərgidə realizmdən tutmuş modernizm və postmodernizmədək Azərbaycanın təsviri sənətinin nadir nümunələri nümayiş etdirilir.

Mərkəzdə iki ölkə arasında elm-təhsil mübadilələri çərçivəsində onlayn dərslərin keçirilməsi, Azərbaycan dilinin tədrisi üçün xüsusi avadanlıqlarla təchiz olunmuş otaq da vardır. Burada Azərbaycan musiqisinin təbliğinə də geniş yer ayrılıb. Qədim musiqi alətlərimizin sərgisi təşkil olunub və bütün musiqi janrlarımızla bağlı CD-lər və italyan dilində nəşrlərdən ibarət guşə də yaradılıb. Bundan başqa, mərkəzdə Azərbaycanın milli mətbəxinin nümunələrinin hazırlanması və müvafiq master-klasların və təlimlərin keçirilməsi üçün şərait var.

Binanın səfirlik üçün nəzərdə tutulan iş otaqlarında fəaliyyət üçün hər cür şərait yaradılıb. Görüş otaqlarında Azərbaycan-İtaliya münasibətlərinin ən vacib məqamları, Azərbaycan Respublikası Prezidentinin azad olunmuş ərazilərə səfərləri, İtaliyada Azərbaycanla bağlı dərc olunmuş kitablarla bağlı fotosərgilər yerləşdirilib.

Binanın beşinci mərtəbəsində tədbirlərin keçirilməsi üçün Roma şəhərinin mənzərəsinə açılan böyük terras var.

Səfirliyin binasının həyətində "Xarıbülbül" Beynəlxalq İncəsənət Festivalının qaliblərinin müəllifi olduqları "Xarıbülbül" maketləri nümayiş etdirilir.







# Azərbaycan-İtaliya münasibətlərində yeni səhifə

**Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri**

## İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə sazişlərin mübadiləsi oldu.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Luiss Guido Carli Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım Paola Severino mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Romanın Sapienza Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Romanın Sapienza Universitetinin rektoru professor xanım Antonella Polimeni mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Turin Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Turin Politexnik Universitetinin rektoru professor Guido Saraçço mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti ilə bağlı ADA Universiteti və Alma Mater Bolonya Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Alma Mater Bolonya Universitetinin icraçı prorektoru professor xanım Simona Tondelli mübadilə etdilər.

"ADA Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Milan Politexnik Universitetinin Dizayn Departamentinin direktoru professor Alessandro Deserti mübadilə etdilər.

Sənədlərin mübadiləsindən sonra dövlətimizin başçısı çıxış etdi.

Mərasim iştirakçılarını salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Mən sizi səmimiyyətlə salamlayıram.

Azərbaycan səfirliyinə xoş gəlmisiniz.

Bugünkü mərasim Azərbaycan səfirliyinin yeni binasında keçirilir. Onu da deməliyəm ki, bu, yeni binada keçirilən ilk tədbirdir. Romanın tarixi məhəlləsində yerləşən bu tarixi bina bu gün öz qapılarını açır və eyni zamanda bu binada Azərbaycanın Mədəniyyət Mərkəzi də fəaliyyət göstərəcək.

Mən çox şadam ki, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aiddir. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq.

Bu ilin aprel ayında Bakıda ADA Universitetinin kampusunda İtaliya xarici işlər naziri cənab Luici Di Maionun iştirakı ilə yeni tədris korpusunun təməli qoyuldu. İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək. Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti, Roma Sapienza Universiteti - bu adlar İtaliyanın kənarında da məşhurdur. Onu da bildirməliyəm ki, İtaliya-Azərbaycan Universitetinin nəzdində iki institut - Kənd Təsərrüfatı və Qida Elmləri İnstitutu və Dizayn və Memarlıq İnstitutu fəaliyyət göstərəcək.

İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bizim çox güclü siyasi-iqtisadi əlaqələrimiz mövcuddur. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatıb.

Bugünkü mərasim isə onu göstərir ki, biz gələcəkdə təhsil sahəsində də strateji tərəfdaş kimi fəaliyyət göstərəcəyik. Heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir. Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq. Bir sözlə, mən hesab edirəm ki, bu gün biz tarixi hadisənin şahidiyik. Bu gün mənim İtaliyaya işgüzar səfərimin birinci günüdür və birinci tədbiridir. Əminəm ki, İtaliya rəhbərləri ilə keçiriləcək görüşlər bizim dostluğumuzu, tərəfdaşlığımızı daha da möhkəmləndirəcək.

Bir daha hamınızı bu gözəl tarixi hadisə münasibətilə təbrik edirəm.

❖ ❖ ❖

İtaliya Respublikası Ekoloji Keçid Nazirliyinin dövlət katibi xanım **Vannia QAVA** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli nazirlər.

Hörmətli sədrlər və hörmətli rektorlar.

Xanım nazir Maria Kristina Messanı əvəz edərək bu mərasimdə iştirak etməkdən iftixar və şərəf hissi duyuram. Əfsuslar olsun ki, xanım nazir bu gün Nazirlər Şurasında olan təcili və təxirəsalınmaz işlər səbəbindən bu tədbirdə iştirak edə bilmədi.

Ümumiyyətlə, apardığım fəaliyyətin əsas hissəsinə gəldikdə, qeyd etmək istəyirəm ki, bu, hər iki tərəf üçün strateji əhəmiyyət daşıyan, energetika sahəsində olan münasibətlərimizdir və bu münasibətlə mən son bir neçə ay ərzində Bakıya səfərlər etmişəm. Səfərlər zamanı məhz dayanıqlı inkişaf çərçivəsində ikitərəfli mühüm memoranduma imza atmışam. Eyni zamanda münasibətlərimizə gəldikdə, mən xüsusi olaraq bir daha onların strateji mahiyyətini burada qeyd edərək bildirmək istəyirəm ki, bu gün onlar bir çox sahələri əhatə edir - enerjidən tutmuş mədəniyyətə qədər. O cümlədən insanlarımız arasında qarşılıqlı münasibətləri də əhatə edir və əslində, bu, məhz Prezident Əliyevin 2020-ci ilin fevral ayında səfəri çərçivəsində bir daha özünü büruzə verdi. Eyni zamanda bu, aprel ayında Bakıda xarici işlər nazirləri səviyyəsində aparılmış strateji dialoqun ilk iclasında özünü göstərdi.













Bu gün isə mən digər bir mərasimdəyəm və bizim İtaliyanın universitetləri ilə Azərbaycan universiteti arasında həm mədəniyyət, həm elmi-tədqiqatlar, həm də, ümumiyyətlə, təhsil sahəsində növbəti əməkdaşlığın şahidiyik. Bunun əsasında bizim münasibətlərin miqyası genişlənir.

*Ardı 4-cü səh.*

# Azərbaycan-İtaliya münasibətlərində yeni səhifə

Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri

## İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi





Əvvəli 3-cü səh.

Bu çərçivədə İtaliya ilə Azərbaycan arasında məhz bu sahədəki əməkdaşlığın yeni istiqaməti mədəniyyət, elm və texnologiya sahələrində əməkdaşlıq haqqında sazişin 2006-cı ildə qüvvəyə minməsindən sonra baş tutdu. Nəticə etibarilə 2015-ci ildə biz mədəniyyət sahəsində əməkdaşlıq haqqında niyyət memorandumu imzaladıq və 2021-ci ildə elm sahəsində əməkdaşlığa dair protokola imza atdıq.

Bu baxımdan mən xüsusi olaraq qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi, gücləndirilməsi, o cümlədən güclü ikitərəfli münasibətlərin növbəti səviyyəyə qaldırılması məqsədilə İtaliya vacib hesab etdi ki, ölkələrimiz arasında həmçinin elmi-tədqiqatlarla məşğul olan elmi işçilərin də mübadiləsi baş tutsun. Onlar ikitərəfli tədqiqat layihələri çərçivəsində səfərləri mübadilə etmişlər. Onlar məhz təbii elmlər, tibb elmi, tətbiqi texnologiyalar və mədəni irsin qorunması sahələrində birgə işləmişlər.

Nüfuzlu universitetlər və elmi-tədqiqat mərkəzləri tərəfindən təqdim edilmiş layihələrə gəldikdə, məmnuniyyətlə aşağıdakıları qeyd etmək istəyirəm: Paskale Fondu, Pavia Onkoloji İnstitutu, Kalabriya Universiteti, Elmi-Tədqiqatlar üzrə Milli Şura ilə aparılan layihələr. Qeyd etdiyim bütün bu təşkilatlar Azərbaycanda müvafiq qurumlarla güclü əlaqələrin qurulmasına müvəffəq olmuşlar.

Əslində, qeyd etdiyimiz bu istiqamətə gəldikdə, o, bu gün İtaliyanın beş nüfuzlu universiteti ilə ADA Universiteti arasında yaradılmış tərəfdaşlığa tam uyğundur. Mən burada xüsusilə aşağıdakı tədris ocaqlarına istinad etmək istəyərdim: Luiss Guido Carli Universiteti, Sapienza Universiteti, Milanın Politexnik Universiteti, Bolonya Universiteti, Turinin Politexnik Universiteti və digərləri. Qeyd edilən bu universitetlər İtaliya ilə Azərbaycan arasında münasibətlərin daha güclü, daha əhəmiyyətli şəkildə inkişaf etdirilməsinə öz razılıqlarını vermişlər. Bu münasibətlə həmçinin mən İtaliya universitetləri və ADA Universiteti tərəfindən aparılmış bu işin həm öz tərəfimdən, həm xanım nazir Messa tərəfindən yüksək dəyərləndirildiyini, həmçinin burada - Romada Azərbaycanın Mədəniyyət Mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Həmin mərkəz vasitəsilə mədəniyyət sahəsində olan əməkdaşlığımızın dəyəri daha da yüksək səviyyəyə qaldırılacaq və əməkdaşlıq güclənəcəkdir.

Xalqlarımız arasında təşəkkül tapmış və inkişaf etmiş bu cür səmimi dostluğu qeyd edərək bildirmək istəyirəm ki, bunun sayəsində münasibətlərimizin daha da dərinləşməsi üçün digər istiqamətlər açılır və bu sahələrdə biz öz işimizi davam etdirmək və tədqiqat işlərimizi bir yerdə aparmaq istərdik. Hesab edirəm ki, biz bu gün mühüm bir anı birlikdə qeyd edirik və bu, bizim strateji münasibətlərimizin xüsusi mərhələsi olacaqdır. Ən vacibi isə odur ki, biz bunu gələcəkdə birgə yazacağımız səhifələrin perspektivinin başlanğıc nöqtəsi kimi görürük.

❖ ❖ ❖

İtaliya-Azərbaycan Universiteti üçün tərəfdaş italyan universitetləri adından Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım **Paola SEVERİNO** çıxış edərək dedi:

- Hörmətli Prezident.

Hörmətli səfirlər, rektorlar, hökumət üzvləri.

Belə mühüm sazişlərin imzalanmasında universitetlərimizdən ibarət konsorsiumun bu işə bu qədər iftixar hissi ilə, bu qədər həvəslə yanaşdığına görə mən çox məmnun olduğumu bildirmək istərdim. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, mən indi bir neçə il bundan əvvəl sizin ölkənizə, gözəl paytaxtınız Bakı şəhərinə etdiyim səfərləri xatırlayıram. Hörmətli rektor Hafiz Paşayevlə apardığımız danışıqlar mənim yaxşı xatirimdədir. Qeyd etmək istəyirəm ki, sizin gözəl paytaxt şəhəriniz o vaxt mənə böyük təəssürat bağışladı. Çünki sizin paytaxtınız bir tərəfdən, öz xüsusi, hətta Orta əsrlər və ondan əvvəlki tarixi dövrlərə gedib çıxan mədəni irsi ilə məhz fəxr edir. Digər tərəfdən, mən Bakıda müasirliyi, məhz göydələnlərdən ibarət olan o gözəlliyi sanki bizim ürəklərimizdə alovlanan bir alov kimi qəbul edirəm. Ona görə təşəkkür edirəm.



Elə həmin gündən etibarən biz böyük həvəslə sizinlə işləməyə başladıq. Əslində, öz aramızda mədəniyyət sahəsində əlaqələrin belə mühüm məqamlarına diqqət yetirdikdə, biz belə bir qərara gəldik. Bu, elə bir layihədir ki, onun mahiyyəti o qədər böyükdür ki, nəinki ADA Universiteti və Luiss Guido Carli Universiteti arasında, o cümlədən biz həmçinin bu əlaqələrə digər italyan universitetlərini də qoşmalıyıq. Məhz bu səbəbdən biz istədik ki, ən vacib İtaliya universitetləri bizimlə birgə olsun, Roma Sapienza Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti və Bolonya Universiteti. Buna görə də mən çox şad oldum ki, digər tədris ocaqları da bu mühüm layihədə iştirak etdi. Əslində, bu addım İtaliya ilə Azərbaycan arasında nəinki mədəniyyət sahəsində olan, o cümlədən digər sahələrdə də əməkdaşlığın daha da genişləndirilməsinə böyük vüsət verəcək. Bu işə qoşulmuş universitetlərin adından burada mənə çıxış etməyi həvalə etdikləri üçün onların da nümayəndələrinə təşəkkürümü bildirirəm.

Əslində, iki il əvvəl cənab Prezident Əliyevin İtaliyaya dövlət səfəri çərçivəsində həmin universitetlərin nümayəndələri ilə də görüşlər keçirildi, vacib sazişlər imzalandı. Məhz bu addımdan sonra biz İtaliya ilə Azərbaycan arasında belə bir çoxtərəfli, çoxölçülü layihənin hazırlanması və onun həyata keçirilməsi qərarına gəldik. Bu da özlüyündə çox böyük əhəmiyyət daşıyır. Bu gün isə biz artıq Bakıda fəaliyyət göstərən İtaliya-Azərbaycan Universiteti haqqında danışırıq. Bilirik ki, əslində, o universitetin də təməli bu il bizim xarici işlər naziri Luici Di Maionun və Azərbaycanın müvafiq hakimiyyət orqanlarının iştirakı ilə qoyulmuşdur. Layihə beş İtaliya Universiteti ilə ADA Universiteti arasında həyata keçiriləcək. Onun əsas məqsədi həm təhsil, həm laboratoriya işləri, həm kadrların hazırlanması, o cümlədən dövlət və özəl sektorun nümayəndələri üçün müxtəlif tədbirlərin keçirilməsidir.

Mən əminəm ki, istər sizin universitet təhsil sisteminizi götürsək, istərsə də İtaliyanın bu sistemini götürsək, biz birgə çalışaraq, əslində, innovasiyaya, işlərin daha da təkmilləşdirilməsinə, müxtəlif layihələrin hibridləşdirilməsinə yönəlmiş bir təkan yaranacaqdır ki, bu da, əslində, aramızdakı qarşılıqlı əməkdaşlığı daha da gücləndirəcək. Əhatə olunan sahələrə gəldikdə, biznes sahəsi, aqronomiya, dizayn, mühəndislik, memarlıq sahələri onların arasındadır. Bildiyiniz kimi, biz bunu ADA Universiteti ilə birgə müzakirə edərək razılaşdırmışdıq. İtaliya-Azərbaycan Universiteti orta və uzun perspektivdə ikitərəfli əməkdaşlığın inkişafı üçün mərkəzi platforma kimi xidmət edəcək. Bununla biz birgə səylər göstərərək, həm tələbələrimizə təhsil verərək, həm tədqiqatçılarımız üçün imkanlar yaradaraq, hər iki ölkənin iqtisadiyyatının ahəngdar inkişafına töhfə verəcəyik. Bu gün beynəlxalq səviyyədə yaşanılan çətinliklər dövründə Prezident Əliyev öz qətiyyətini, öz uzaqgörənliyini nümayiş etdirərək iki ölkə arasında əməkdaşlıq və dostluq münasibətlərinin daha güclü təməlini məhz burada qoydu. Biz burada məhz onun çox yüksək dəyərə malik olan liderlik keyfiyyətlərinin şahidiyik.

Cənab Prezident Əliyev, bu gün səhər bizimlə bu tədbirdə iştirak etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkürümüzü bildiririk.

❖ ❖ ❖

ADA Universitetinin rektoru professor **Hafiz PAŞAYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli dövlət xadimləri, universitetlərin nümayəndələri.

Mənim hisslərimi, yəqin ki, siz yaxşı başa düşürsünüz. Çox həyəcanlıyam və bu günü mən bir tarixi gün kimi öz yaddaşıma yazıram. Hörmətli cənab Prezidentin dediyi kimi, bu, əsl tarixi bir gündür - həm İtaliya üçün, həm Azərbaycan üçün. Çünki təhsil məhz o sahədir ki, bizim ikitərəfli münasibətləri də genişləndirəcək və daha da yüksəkliyə qaldıracaq.

Cənab Prezident, Sizin iki il öncə irəli sürdüyünüz təşəbbüs bu gün öz nəticələrini verir. Mənim yaxşı yadımdadır ki, Sizin o təşəbbüsdən sonra ilk memoranduma qol çəkildi və professor Paula Severino ilə biz ilk sənədə o zaman qol çəkdik. Sizə açığını deyim, mən gözləməzdim ki, qısa bir zamanda biz bu səviyyədə indi o müqavilələrə qol çəkdik. Artıq demək olar ki, İtaliya-Azərbaycan Universiteti iki ölkə arasındakı münasibətlərin böyük bir hissəsidir. Təbii ki, mən öz tərəfimdən çalışacağam ki, bu, uğurlu olsun və Azərbaycan-İtaliya münasibətlərinə böyük töhfə versin.

Bu gələcək universitetin - bu gün, necə deyərlər, inauqurasiyasını etdiyimiz universitetin proqramı üzrə iki il ərzində COVID zamanı biz iş apardıq. O ki qaldı, onun infrastrukturuna, həmin bu universitetlərin nümayəndəliyinin iştirakı ilə biz laboratoriyaların, ümumən, dərs sisteminin qurulmasına çox böyük diqqət yetirdik. Bunun nəticəsidir ki, bu gün imzaladığımız və mübadilə etdiyimiz sənədlərdə çox ciddi və ətraflı proqram tərtib olunmuşdur.

Mən bizim həmkarlarımıza, universitetlərin nümayəndələrinə böyük təşəkkürümü bildirmək istəyirəm. Mən bu işdə fəal iştirak etmiş bizim səfirliyi xüsusi qeyd etmək istəyirəm.

Cənab Prezident, mən Sizə söz verirəm ki, bu universitetin uğurunu birlikdə görəcəyik və İnşallah, Azərbaycanın iqtisadiyyatına lazım olan bütün sahələr üzrə mütəxəssislər yetişdirəcəyik. Çox sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Qeyd edək ki, bu il İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun ölkəmizə səfəri çərçivəsində aprelin 2-də Bakıda ADA Universitetinin kampusunda təməli qoyulan İtaliya-Azərbaycan Universiteti Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliyaya dövlət səfəri zamanı əldə olunub.

Bu ali təhsil ocağında tədris olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet eyni zamanda kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, həmçinin şəhərsalma və landşaft memarlığı, dizayn, sosial elmlər, biznesin idarə olunması, italiyaşünaslıq və digər istiqamətlər üzrə təcrübə, nou-hau, texnologiya və innovasiyaların tətbiq ediləcəyi elm və bilik ocağı olacaq.

# Azərbaycan-İtaliya münasibətlərində yeni səhifə

## Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarella ilə görüşü





*Əvvəli 1-ci səh.*

İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi.

Sonra birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan **İtaliya Prezidenti Sercio MATTARELLA** dedi:

- Cənab Prezident, Sizi burada - İtaliyada, Romada, Kuirinale Sarayında qəbul etməkdən şəxsən iftixar hissi duyuram. Xoş gəlmisiniz.

Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin 30 illiyini qeyd edirik. Bu səhər Siz Azərbaycan səfirliyinin yeni binasını açdınız. Bu, İtaliya ilə Azərbaycan arasında dostluq əlaqələrinin mühüm nümunəsidir.



Əlaqələrimizin strateji əhəmiyyətindən xəbər verən 2020-ci ildəki səfərdən sonra Sizi burada Kuirinale Sarayında yenidən qəbul etməkdən çox məmnunam və şərəf hissi duyuram. Bir daha xoş gəlmisiniz, cənab Prezident.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Mən son səfərimi də xatırlayıram və əldə edilmiş bütün razılaşmalar həyatda öz əksini tapır.

Biz keçən dəfə Sizinlə burada görüşəndə strateji tərəfdaşlığa dair mühüm sənəd imzalamışıq. Eyni zamanda İtaliya-Azərbaycan Universitetinin yaradılması haqqında söhbət etmişik. Bu gün isə İtaliya-Azərbaycan Universitetinin yaradılması istiqamətində önəmli addım atıldı.



## Azərbaycan Avropa İttifaqının və İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır

Sentyabrın 1-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının Sədri Mario Draqi ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevin qarşılanma mərasimi oldu.

Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının Sədri Mario Draqi Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının Sədri Mario Draqi fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İtaliyanın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri İtaliya Nazirlər Şurasının Sədrinə təqdim olundu.

Sonra dövlətimizin başçısı İlham Əliyev və İtaliya Nazirlər Şurasının Sədri Mario Draqi birgə foto çəkdirdilər.









Görüşdə Prezident İlham Əliyev İtaliyaya 2020-ci ildəki dövlət səfərini, bundan əvvəlki rəsmi və işgüzar səfərlərini xatırlatdı.

Söhbət zamanı ölkələrimiz arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin strateji tərəfdaşlıq zəminində inkişafı qeyd edildi.

Nazirlər Şurasının Sədri Mario Draqi bu səfərin ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafına töhfə verəcəyini bildirdi, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq səviyyəsində çox yaxşı əlaqələrin qurulduğunu və qarşılıqlı ticarət dövriyyəsinin davamlı surətdə artdığını, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı.

Görüşdə Azərbaycanın Avropa İttifaqının və İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolu xüsusi qeyd edildi. Eləcə də ölkələrimiz arasında iqtisadiyyat, elm, təhsil, mədəniyyət, incəsənət və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Həmçinin İtaliya şirkətlərinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-yenidənqurma işlərində fəal iştirak etdiyi vurğulandı.

Söhbət zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri və səfər çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd olundu.

Görüşdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi və təşkilatçılığı ilə aparılan Brüssel sülh gündəliyinin və bu xüsusda Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara başlanılmasının əhəmiyyəti vurğulandı, bu prosesin regionda davamlı sülhün və təhlükəsizliyin gücləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İlham Əliyevin növbəti diplomatik uğuru



# Qalibin üstünlüyü

*Əvvəli 1-ci səh.*

## Öhdəliklərinə sadiq ölkə

Dördüncü Brüssel görüşündə sülh müqaviləsinin imzalanması, eləcə də bu ilin mayında yaradılmış sərhədlərin delimitasiyası komissiyasının fəaliyyəti kimi məsələlər müzakirə olundu. Yəni bu görüş bir növ həm də hesabat xarakterli idi.

Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır.

Üçtərəfli görüşdən sonra Şarl Mişelin verdiyi bəyanata nəzər yetirdikdə aydın görünür ki, Avropa İttifaqı ilk növbədə regionda sülhün tezliklə bərqərar olmasında çox maraqlıdır. Kommunikasiyaların açılması, nəqliyyat-tranzit məsələlərinin həllini tapması Cənubi Qafqazın inkişafı ilə yanaşı, regionda sabitliyi daha da möhkəmləndirəcək. Ona görə də Avropanın siyasi mərkəzi olan Brüssel görüşləri sülh prosesinə töhfə kimi dəyərləndirilir.

## Sülh müqaviləsi İlham Əliyevin irəli sürdüyü və İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında hazırlanacaq

### Şarl Mişelin bəyanatındakı tezislər

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel üçtərəfli görüşdən sonra verdiyi bəyanatda müzakirə olunmuş məsələlər üzrə konkret fikirlərini səsləndirib. Aİ Şurasının prezidenti qeyd edib ki, bu müzakirədə Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətləri tənzimləyən sülh müqaviləsi üzrə irəliləyiş üçün prosesin gücləndirilməsi haqqında hər iki tərəflə razılaşma əldə edilib.

Onun fikrincə, budəfəki görüşdə aparılan fikir mübadilələri açıq və məhsuldar keçib. Diplomat son görüşdə əldə edilən razılaşmalar istiqamətində bəzi addımların atılmasını isə sevindirici hal kimi qiymətləndirib.

Beləliklə, dördüncü Brüssel görüşündə sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verilib.

Həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, saxlanılan və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələr aparılıb və qeyd edilib ki, Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək.

Tərəflər sərhədlərin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişləri və sabit vəziyyəti daha yaxşı təmin etməyi, nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələri bir daha nəzərdən keçiriblər.

Bəyanatda eyni zamanda Avropa İttifaqının uzunmüddətli və davamlı sülh istiqamətində öz dəstəyini bundan sonra da göstərməyə hazır olduğu vurğulanıb. Avropa İttifaqı hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə də davam edəcək.

Görüşdə həmçinin Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi ilə bağlı razılığa gəlinib.

### Azərbaycan Şarl Mişelin rolunu yüksək qiymətləndirir

Belçikada baş tutan sülh danışıqlarının dördüncü mərhələsində baş verən prosesləri və ümumilikdə bu prosesə vasitəçilik edən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin rolunu rəsmi Bakı yüksək qiymətləndirir.

Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz tviter hesabındakı paylaşımında qeyd edib: "Biz Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası normallaşmaya kömək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib".

Bir sözlə, İlham Əliyev bir daha göstərdi ki, Azərbaycan qalib ölkə kimi diktə edən tərəfdir, milli maraqlarımız üçün əhəmiyyət daşıyan bütün məsələləri qarşı tərəfə qəbul etdirir və görüşlərdə ölkəmizin böyüklüyünü, gücünü bir daha nümayiş etdirir. Sülh müqaviləsinin hazırlanması da Qalib Komandanın irəli sürdüyü 5 prinsip əsasında reallaşmalıdır. Azərbaycanın daxili işi olan Qarabağ mövzusu isə artıq müzakirə edilmir.

Son görüşdə bir daha aydın oldu ki, Azərbaycanın gücünə və siyasi iradəsinə qarşı gəlmək mümkün deyil. Çünki güc də, beynəlxalq hüquq da, ədalət də Azərbaycanın lehinədir. İlham Əliyevin irəli sürdüyü 5 prinsipdən hər hansısa birini Ermənistan həyata keçirməkdən boyun qaçırarsa, sülh müqaviləsi imzalanmayacaq. İstənilən etirazı, təxribatı isə "Dəmir yumruq" əzəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Brüssel görüşü Ermənistanda yenə çaxnaşma yaratdı

## "Paşinyan boş yerə Belçikaya niyə gedir ki, onsuz da İlham Əliyev nə deyirsə, o da olur"

Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, sülh və əməkdaşlıq üçün irəli sürdüyü təkliflər artıq dünya dövlətləri, beynəlxalq ictimaiyyət tərəfindən də təqdir edilir. Zəngəzur dəhlizinin açılması, sərhədlərin müəyyən edilməsinə dair Azərbaycanın təkliflərinə çoxsaylı ölkələr tərəfindən tam dəstək ifadə olunur. Ermənistan buna əvvəllər müqavimət göstərməyə çalışsa da, dünya dövlətlərinin yanaşması onların Azərbaycanı dəstəklədiyini, Ermənistanın tək qaldığını göstərir.

Bu fonda Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə birgə növbəti Brüssel görüşü İrəvanda böyük reaksiyaya səbəb olub. Artıq erməni ictimaiyyəti də ölkələrinin xilas formulunun Azərbaycanla münasibətləri normallaşdırmaqda gördüklərini davamlı şəkildə bildirir.

Brüsseldəki sonuncu görüşdən öncə bir şəkil paylaşan "Ermənistan" Partiyasının sədr müavini Armen Aşotyan bildirmişdi ki, hər şey fotolardan aydın görünür: "Brüsseldə başlayan üçtərəfli görüşdən fotolar silsiləsi yenə öz sözünü deyir. Yenə deyirəm ki, məğlubiyyətin səbəbkarı və simvoluna çevrilmiş məxluqun danışıqları davam etdirməyə haqqı yoxdur. Burada yenə hər şey artıq fotoşəkillərdən aydındır. Bədən dili sadəcə bu barədə qışqırır. Axşam yeni bir məğlubiyyət mesajı gözləyin".

"4rd.am" saytı isə yazır ki, sülh müqaviləsinin imzalanmasının gecikməsi Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsini sürətləndirir. Müəllif məqalədə diqqəti buna da yönəldir ki, bütün bu proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir. Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir: "Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində də kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır. Regionların qlobal layihələrdən kənarda qalması da prosesə birbaşa təsir edir. Ermənistan hələ də qlobal kommunikasiya layihələrindən kənarda qalmaqdadır. Qlobal meyillər durmadan dəyişir və ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı da itirməkdədir. Amma əvəzində Azərbaycan prosesdən uğurla faydalanır. Sülh müqaviləsinin imzalanmasının gecikməsində Ermənistan itirən tərəfdir".

İrina Arakinyan adlı biri instaqramda Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi xəbərə maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev Brüsseldə növbəti dəfə Paşinyanın burnunu ovub, geri göndərdi".

Akop Hukasyan adlı daha bir feysbuk istifadəçisi İlham Əliyevlə Paşinyanın Brüsseldə görüşünün yer aldığı xəbərə münasibət bildirib. İrəvan Dövlət İqtisad Universitetinin tələbəsi rəyində yazır: "Ötən zaman göstərir ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır. İndi Azərbaycan rəhbərinin diktə edən tərəf olması bir erməni gənci olaraq məni çox qıcıqlandırır. Görəsən, Paşinyan Əliyevin qarşısına hansı üzlə çıxır? Çox təəssüf və qıcıq hissi ilə deyirəm ki, Paşinyan İlham Əliyevə davamlı şəkildə uduzur".

Poxos Poxosyan "VKontakte" sosial şəbəkəsində Prezident İlham Əliyevlə Paşinyanın görüşünün yer aldığı xəbərin rəy bölümündə baş nazirin şəklini paylaşaraq "Ermənistanı sizinlə daha parlaq gələcək gözləyir" şərhi çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib. Karen Melikyan adlı istifadəçinin bu fotoya şərhi isə daha çox bəyənmə toplayıb: "İlham Əliyev bizi informasiya müharibəsində də məğlub etməkdə davam edir. Müxtəlif sosial qruplarda "klaviatura qəhrəmanları" çoxsaylı statuslar və şərhlərlə bildirirlər ki, belə çıxış etməklə Nikolu Əliyev qarşısında çox aşağı səviyyəyə salırsınız. Vətənə xəyanət edirsiniz. Vətənə biz yox, Paşinyan və onu burada müdafiə edənlər xəyanət edirlər. Neyləməliyik? Ermənistan məhv olur, susmalıyıq?"

Araik Avetisyan adlı istifadəçi tviterdə "Brüsseldə növbəti görüş" paylaşımını edərək yazıb: "Paşinyan boş yerə Brüsselə niyə gedir ki, onsuz da İlham Əliyev nə deyirsə, o da olur. Görəsən, bizim baş nazirimiz sülhü niyə istəmir ki? Özüm də Zəngəzurdanam. Zəngəzur bu anda regionun geosiyasi mərkəzidir. İlham Əliyevi bu mövzuda biz də dəstəkləyirik. Sülh müqaviləsinin imzalanması, dəhlizin açılmasını çox böyük səbirsizliklə gözləyirik. Bu dəhliz sayəsində ağ günə çıxacağıq".

Bütün bunlar əsl həqiqətlərin nədən ibarət olduğunun artıq ermənilər tərəfindən də dərk olunduğunu aydın nümayiş etdirir. Onlar anlamağa başlayıblar ki, Ermənistanın acınacaqlı vəziyyətə düşməsinin əsas səbəbi 30 ilə yaxın davam edən işğalçılıq siyasəti idi.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Brüsseldə sülh müqaviləsinin hazırlanması razılaşdırıldı

## Azərbaycan hədəfə çatmaq üçün mühüm addımlar atır

Avqustun 31-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən növbəti üçtərəfli görüş günün müzakirə mövzusuna çevrilib.

Üçtərəfli görüşün yekunlarına dair mətbuata bəyanat verən Şarl Mişel qeyd edib ki, görüşdə Cənubi Qafqazda son hadisələr və Avropa İttifaqı ilə hər iki ölkə arasındakı münasibətlər müzakirə olunub. Dövlətlərarası münasibətləri nizamlayan sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı razılığa gəlinib və xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verilib. Bəyanatda eyni zamanda sərhədlərin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişləri və sabit vəziyyəti daha yaxşı təmin etməyin nəzərdən keçirildiyi vurğulanıb.

Məsələyə münasibət bildirən siyasi ekspertlər qeyd edirlər ki, dördüncü Brüssel görüşü də Azərbaycanın diplomatik üstünlüyü ilə yekunlaşıb.

### Beynəlxalq normalar Azərbaycanın tərəfindədir

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sahib Alıyev qeyd edir ki, Brüsseldə keçirilən bütün görüşlər Azərbaycanın irəli sürdüyü gündəlik əsasında reallaşır. Deputatın sözlərinə görə, format da Azərbaycanın maraqlarına uyğundur. Görüşöncəsi fotolardan da, bədən dilindən də məlum olur ki, kim görüşə necə gəlib: "Qarşı tərəfdəki çəkingənlik, özünəgüvənsizlik baş nazir Paşinyanın üzünə çökmüşdü. Adətən görüşdən sonra Azərbaycan tərəfi Ermənistanda Paşinyanın mövqelərinin güclü olmadığını nəzərə alaraq rəsmi açıqlamalar vermir. Daha çox onlar görüşlə bağlı açıqlama verirlər. Ermənilər bəzən olmayan məsələləri qabardırlar, sonra isə cavablarını alırlar. Bu dəfə Ermənistan baş nazirinin açıqlaması onu göstərir ki, indiyədək bu yöndə buraxdıqları səhvlərdən, ən azından bunun cəzasız qalmayacağından nəticə çıxarıblar".

Sahib Alıyev deyir ki, sülh gündəliyi ön plandadır. Bununla bağlı bir ay müddətində xarici işlər nazirləri görüşüb konkret məsələlər üzərində işləməlidirlər. Eyni zamanda görüşdə humanitar, Birinci Qarabağ savaşında itkin düşmüş azərbaycanlı əsir və girovların taleyi məsələləri də yer alıb. Humanitar məsələlərdə hər iki tərəfin irəli sürdüyü problemlər qeyd edilir. Həmçinin kommunikasiyaların açılması, delimitasiya və demarkasiya məsələləri müzakirə olunub: "Nikol Paşinyanın açıqlamasından da görünür ki, danışıqlar onun üçün çox çətin olub. Çətin də olmalıdır, çünki Azərbaycan-Ermənistan sərhədində həm operativ, həm də strateji vəziyyətə nəzarət Azərbaycanın əlindədir. Güc, beynəlxalq normalar Azərbaycanın tərəfindədir".

Deputat vurğulayır ki, Ermənistan tərəfində ancaq öz geosiyasi maraqlarına görə sülh prosesinin irəliləməsini istəməyən bəzi çevrələr ola bilər. Onlar da öz maraqlarını nəzərə alırlar, Ermənistan burada qurban rolunda çıxış edir.

Deputatın sözlərinə görə, danışıqlar çətin olsa da, asan həll edilən məsələlərdir. Asan həlli odur ki, Azərbaycanın irəli sürdüyü tələblərə, götürdükləri öhdəliklərə əməl etməlidirlər, çünki bu, beynəlxalq normalara əsaslanır. İkincisi odur ki, Ermənistan kapitulyasiya aktına qol çəkmiş tərəfdir. Real vəziyyətdən çıxış edərək regionda tezliklə sülhün yaranmasına çalışmalıdır. Bu, Ermənistanın maraqlarına heç də Azərbaycandan az cavab vermir: "Ümid edirəm ki, növbəti "Qisas" əməliyyatına ehtiyac qalmayacaq, noyabr ayına kimi Ermənistan tərəfi götürdüyü öhdəliklərə əməl edəcək".

### Azərbaycan qalib tərəf kimi öz sözünü deməkdədir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev qəzetimizə açıqlamasında bildirib ki, Brüsseldə keçən yüksəksəviyyəli görüş çox mühüm əhəmiyyət kəsb edir. Deputat qeyd edir ki, Avropa İttifaqı rəhbərinin, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin görüşü bir sıra məqamlarla yadda qaldı.

Əsas məqam odur ki, sülh sazişinin imzalanması üçün mütləq şəkildə işçi qrupun hansı məsələləri müzakirə etmələri ilə bağlı mühüm addımlar atılıb. Eyni zamanda görüşdə humanitar məsələlər, əsir, girovların dəyişdirilməsi, həmçinin Ermənistan ərazisində taleyi məlum olmayan 4 minə yaxın azərbaycanlı haqqında məsələlər də müzakirə olunub. Digər müzakirə predmeti isə dəhlizlərin açılması, infrastrukturun bərpası idi. Üçüncü isə delimitasiya və demarkasiya ilə bağlıdır ki, bu da sülh sazişi üçün əsas məsələdir.

Arzu Nağıyev deyir ki, delimitasiya və demarkasiyadan sonra ərazi bütövlüyünün tanınması gündəmdədir. Ermənilər cidd-cəhdlə bir sıra məsələlərdə özlərini təxribatçı kimi göstərirlər. Azərbaycan qalib tərəf kimi öz sözünü deməkdədir. Gələcəkdə Avropa İttifaqının rəhbərliyi ilə delimitasiya ilə bağlı Sərhəd Komissiyasının işinin Brüsseldə keçirilməsi də gündəmdədir: "Bir sözlə, Azərbaycan tərəfi heç bir dövlətin ərazisinə iddialı olmadığını ortaya qoyaraq, həmişəki kimi beynəlxalq normalar əsasında çox mühüm məsələlərin müzakirəsində iştirak etdi. Ermənistanın kütləvi informasiya vasitələri bunu Paşinyanın məğlubiyyəti kimi qeyd edirlər. Əsas odur ki, addım-addım Qarabağ məsələsinin sonuna gedirik və birmənalı olaraq Azərbaycan işğaldan azad olunmuş ərazilərdə Konstitusiyamıza uyğun olaraq bütün problemləri həll etməklə məşğuldur. Bu da çox mühüm və təqdirəlayiq haldır".

### Görüşdə Qarabağ sözünün istifadə olunmaması Azərbaycanın strateji uğurudur

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Brüsseldə keçirilən növbəti görüş də Azərbaycanın gözlənilən üstünlüyü ilə yekunlaşıb. Bunu bir neçə məqam üzərindən əsaslandırmaq mümkündür: "Ermənistanın görüşlə bağlı ümidləri var idi. Xatırladaq ki, ABŞ Dövlət katibi Entoni Blinken ATƏT-in Minsk Qrupunun yeni amerikalı həmsədrini təyin etmişdi. Məqsədləri də o idi ki, münaqişənin hələ də davam etdiyi təəssüratını yaratsınlar. Çünki ATƏT-in Minsk qrupu artıq olmayan Azərbaycan-Ermənistan münaqişəsinin tənzimlənməsi ilə məşğul olmaq üçün yaradılmışdı və yenidən bu qrupun gündəmə gətirilməsi, həm də Brüssel görüşündən əvvəl Cənubi Qafqaz regionu üzrə təmsilçinin müəyyənləşdirilməsi təbii ki, ABŞ-ın bu istiqamətdə növbəti cəhdi idi. Digər məqam isə ABŞ və Fransa səfirlərinin Şuşa konfransında iştirakdan imtina etməsidir".

Deputat düşünür ki, Nikol Paşinyan Brüssel görüşündə hansısa ümid yeri axtarırdı. Bu ümid yeri hər şeydən əvvəl ATƏT-in Minsk qrupunun yenidən reabilitasiyası, Ermənistanın Azərbaycan ərazisində yaşayan ermənilərin taleyi ilə bağlı guya nigaranlığı ilə əlaqəli idi.

Elşad Mirbəşiroğlu qeyd edir ki, Brüssel görüşündə, ümumiyyətlə, Qarabağ termini istifadə olunmadı. Bu, Azərbaycanın strateji qələbəsidir, çünki Azərbaycan Qarabağı Azərbaycan-Ermənistan münasibətləri gündəliyindən çıxarmağa müvəffəq olub. Ermənistanın Azərbaycan ərazisində yaşayan ermənilərin statusu və yaxud gələcəyi ilə bağlı məsələni gündəmə gətirməsi də uğursuz nəticələndi.

### Azərbaycan başlıca prioritetlərinə inamla çatdı

Deputat bildirir ki, Prezident İlham Əliyev Azərbaycan ərazisində yaşayan ermənilərin taleyini daxili məsələ hesab edərək bunun müzakirə predmetinə çevrilməsinə imkan verməyib. Bu, İlham Əliyevin çox mühüm qələbəsidir.

O hesab edir ki, bu görüşdə Ermənistan son ümidlərini də itirib. Deputatın sözlərinə görə, ağır məğlub durumunu qismən də olsa yüngülləşdirmə cəhdləri tam iflasa uğrayıb: "Ermənistan işğalçı dövlət statusunu aradan qaldıra bilmədi, qaldıra bilməzdi də, çünki bu ölkənin davranışlarının başqa adı yox idi. Azərbaycan başlıca prioritetlərinə çox inamla çatdı. Birincisi, bu görüşdə də Qarabağ ifadəsi işlədilmədi, ikincisi, Azərbaycanın ərazisində yaşayan ermənilərlə bağlı, ümumiyyətlə, müzakirələr aparılmadı. Əsas müzakirə sərhədlərin delimitasiyası, sülh sazişinin mətninin hazırlanması, mətnin müzakirəsi üçün xarici işlər nazirləri arasında yaxın zamanda görüşlə bağlı razılığın əldə olunması idi. Amma Ermənistan israrla bunun qarşısını almaq istəyirdi, amma buna nail ola bilmədilər. Bu, Azərbaycanın ədalətli maraqlarına uyğundur. Razılığın əldə olunması işğalçı ölkənin çarəsizliyinin göstəricisi oldu.

Müsahibimiz qeyd edir ki, Azərbaycan Brüssel görüşündən yenə də qələbə ilə çıxıb: "Bütün görüşlərdə Azərbaycan bu və ya digər istiqamətlərdə uğur qazanır və mərhələli şəkildə haqlı, ədalətli hədəflərinə çatması üçün addımlar atır. Hər görüşdən əvvəl Azərbaycanın yaratmış olduğu yeni reallıqlar mövqelərimizin daha uğurla müdafiə olunmasına imkan verirdi. Son görüşdən əvvəl də Azərbaycan Laçın dəhlizini tam nəzarətinə götürdü. Ermənilər Laçın şəhərindən, Sus və Zabux kəndlərindən çıxmaq məcburiyyətində qaldılar. Bunlar mövqelərimizi daha da möhkəmləndirdi, ardınca isə Brüssel görüşündə masa arxasına daha güclü əyləşmiş olduq. Beləliklə, növbəti qələbəmiz təmin olundu".

Deputatın fikrincə, Brüssel görüşü bir daha göstərir ki, Azərbaycan haqq savaşında qalib gəldiyi kimi, düzgün xarici siyasət nəticəsində masa arxasında da öz maraqlarını ədalətli şəkildə müdafiə edərək məqsədlərinə nail olur. Ermənistan sülh sazişini gecikdirmək üçün hər nə qədər bəhanələr gətirsə də, müxtəlif yollara əl atsa da, bu, mümkün deyil. Təbii ki, burada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin də rolu təqdirəlayiqdir. Azərbaycan və Ermənistan arasında görüşlərin keçirilməsi üçün dəstəyini əsirgəməyən Aİ məsələnin tezliklə həll olunması üçün əlindən gələni edir və bu istiqamətdə daim işlər görəcəyini bildirir".

Beləliklə, sayca dördüncü Brüssel görüşündə Azərbaycan ağıllı, doğru siyasəti nəticəsində növbəti qələbəsini qazandı.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənaye parklarının ixracda rolu artır

**Sənaye parkları ölkədə qeyri-neft sektorunun davamlı inkişafında, idxalı əvəz edən məhsulların istehsalının artırılmasında əhəmiyyətli rol oynayır.**

Sənaye parklarının rezidentləri tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, "Made in Azerbaijan" brendi ilə bir çox ölkələrə ixrac olunur.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri "SOCAR Polymer" MMC və "STP" MMC-yə məxsus "STP Alüminium" MMC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanan "İxrac İcmalı" jurnalının 2022-ci ilin avqust ayı üzrə qeyri-dövlət və dövlətə məxsus olan ixracatçı subyektlərin reytinqində ilk onluğa daxil ediliblər.

Reytinq cədvəlində "SOCAR Polymer" MMC dövlətə məxsus olan şirkətlərin siyahısında ikinci, "STP" MMC-nin tərkibində fəaliyyət göstərən "STP Alüminium" MMC isə qeyri-dövlət ixracatçı subyektləri arasında üçüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, ölkəmizdəki sənaye zonalarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Sənaye zonalarında fəaliyyət göstərən sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən, 7 il müddətinə isə gömrük rüsumundan azad olunurlar.

## Azərbaycanın investisiya və xidmətlər ticarəti potensialı Çində beynəlxalq sərgidə nümayiş olunur

**Azərbaycanın investisiya və xidmətlər ticarəti potensialı Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisində (CIFTIS) nümayiş etdirilir.**



AZƏRTAC xəbər verir ki, İqtisadiyyat Nazirliyinin dəstəyi, ölkəmizin Çindəki Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə Azərbaycan vahid ölkə stendi ilə sərgidə təmsil olunur. Sərgidə Azərbaycanın investisiya potensialı ilə yanaşı, keyfiyyətli və rəqabətqabiliyyətli məhsulları da nümayiş etdirilir. Stenddə Ələt Azad İqtisadi Zonası və Azərbaycandakı sənaye parkları haqqında geniş məlumat öz əksini tapıb. Bundan başqa, sərgi iştirakçılarına Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO), İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) və İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) xarici investorlara göstərə biləcəyi xidmətlər və bu qurumlarla potensial əməkdaşlığa dair geniş məlumat verilir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) "Daha yaşıl gələcək üçün innovasiya et" mövzusunda guşəsində şirkətin yeni korporativ strategiyası çərçivəsində 2035-ci ilədək olan dövr üçün enerji keçidi, rəqəmsallaşma və innovasiya kimi fəaliyyət sahələrini əhatə edən yeni üfüqlər üzrə uzunmüddətli strateji hədəfləri haqqında məlumat yer alıb.

Bu, Azərbaycanın Çində keçirilən ən önəmli beynəlxalq sərgilərdən olan CIFTIS-də ardıcıl 4-cü iştirakıdır. Sentyabrın 5-dək davam edəcək sərgi çərçivəsində 200-ə yaxın müxtəlif formatda tədbirin keçirilməsi planlaşdırılıb. Bunlardan biri də Azərbaycanın Çindəki Ticarət Nümayəndəliyinin Çin Beynəlxalq İqtisadi Əməkdaşlıq Assosiasiyası ilə birgə keçirəcəyi "Azərbaycan - investisiya və ticarət imkanları" forumudur.



## "Çörək bol olarsa..."

**Dünyada hərbi, siyasi və iqtisadi qarşıdurmalar səngimək bilmir. İllərlə gizli gedən bu qarşıdurmalar artıq açıq müstəviyə keçib. Rusiya-Ukrayna münaqişəsindən sonra Qərblə Rusiya arasındakı onsuz da gərgin olan münasibətlər pik həddinə çatıb.**

Bu azmış kimi dünya ikinci bir təhlükəli proseslə qarşılaşıb. Tayvan üzərindən Çin və ABŞ arasında başlanan diplomatik gərginlik hərbi hədə-qorxu səviyyəsinə yüksəlib. Mütəxəssislər bunu ABŞ və müttəfiqlərinin dünyada azalan siyasi, hərbi və iqtisadi təsirlərini artırmaq cəhdi kimi qiymətləndirsələr də, görünən odur ki, tərəflər razılığa gələ bilmir, güzəşt barədə düşünmürlər.

Cərəyan edən hadisələr ilk növbədə qlobal iqtisadiyyata mənfi təsir göstərir. Enerji daşıyıcılarının qiymətinin yüksək həddə bahalaşması dünyada istehsalın azalmasına səbəb olub və bu vəziyyətin nə qədər davam edəcəyi məlum deyil. Çünki siyasi ambisiyalardan qaynaqlanan həmin prosesin qaydaya düşməsi üçün ilk növbədə tərəflərin bir-birinə güzəşt etməsi lazımdır. Hələlik isə belə hal müşahidə olunmur.

Məlumdur ki, dünyada enerji daşıyıcılarının qiyməti iqtisadi amillərdən daha çox siyasi proseslərlə bağlıdır. Dünyada söz sahibi olan güclər rəqiblərini sıradan çıxarmaq üçün bu yoldan dəfələrlə istifadə etmişlər. İndi həmin qüvvələr daha kəskin "silah"a - buğdaya əl qoyublar. Biz bunu Rusiya-Ukrayna münaqişəsi başlayandan yaşayırıq. Odur ki, indi dövlətlər baş verənlərdən nəticə çıxarır, ərzaq təhlükəsizliyinin təmin edilməsinə çalışırlar.

Azərbaycanda da bu istiqamətdə ciddi tədbirlər görülür. Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan aqrar islahatlar sayəsində indi bir çox məhsullara olan tələbat daxili istehsal hesabına ödənilir. Bu gün Azərbaycan özünü ət məhsulları ilə 90, quş əti ilə 80, süd və süd məhsulları ilə 85 faiz təmin edir. Qarşıdakı 3-5 il ərzində isə kənd təsərrüfatı məhsulları istehsalının daha yüksək olacağı proqnozlaşdırılır. Bu fakt onu göstərir ki, Prezidentin ərzaq təhlükəsizliyi istiqamətində apardığı aqrar islahatlar öz müsbət nəticəsini verir.

### Prezident İlham ƏLİYEV: "3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır"

Azərbaycanın coğrafi relyefi və torpaq fondu özümüzü əsas ərzaq məhsulu olan buğda ilə tam təmin etməyə imkan vermədiyindən xeyli dərəcədə idxaldan asılıyıq. Buna baxmayaraq, yerli istehsalın artırılması üçün də ciddi tədbirlər görülür. İlk növbədə məhsuldarlığın artırılmasına diqqət artırılır. Paralel olaraq əkin sahələri də genişləndirilir. Artıq işğaldan azad edilən 50 min hektar sahədə buğda əkilib. Yaxın gələcəkdə bunun 100 min hektara çatdırılması planlaşdırılır. Həmçinin əkin sahələrinin müasir suvarma sistemləri ilə təmin edilməsi üçün tədbirlər həyata keçirilir. Eyni zamanda yüksək məhsul götürmək üçün keyfiyyətli toxum və gübrədən istifadə edilir. Yeri gəlmişkən qeyd edək ki, yüksək məhsulun əldə edilməsində önəmli rol oynayan karbamid gübrəsi hazırda ölkəmizdə istehsal olunur və bu, təsərrüfatlara istehsalı artırmaq üçün geniş imkan verir.

Prezident İlham Əliyev bu il avqustun 12-də Azərbaycan televiziyasına müsahibəsində ərzaq təhlükəsizliyinə, buğda istehsalının artırılmasına xüsusi önəm verərək demişdir: "Amma əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək. Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır. Ona görə taxılın qiymətinin dünya bazarlarında qalxması bütün ölkələrə təsir göstərir. Ancaq bugünkü vəziyyət ondan ibarətdir ki, təkcə qiymətdən söhbət getmir, eyni zamanda taxıl qıtlığı yaşanır. Bildiyiniz kimi, Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər. Çünki taxılın əsas ixtracatçıları Rusiya və Ukrayna olduğu halda, indi müharibə əlbəttə ki, bu məsələdə çox böyük əngəllər törətmişdir. Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycan neftinin bir bareli 99,67 dollara satılır

**AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,48 dollar ucuzlaşaraq 99,67 dollar olub.**

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti martın 9-da (135,99) qeydə alınmışdı.

## DOST-da xidmət üçün orta müddət 7,5 dəqiqəyə enib

**DOST mərkəzlərində vətəndaşlara xidmətlərin çevikliyinin təmin edilməsi həmin xidmətlərdən vətəndaş məmnunluğuna nail olunması üçün aparılan işlərin əsas hədəflərindən biridir.**




Cari ildə bu istiqamətdə növbəti irəliləyiş qeydə alınıb: DOST mərkəzlərinə müraciət edən vətəndaşlara müvafiq xidmətlərin göstərilməsinin orta müddəti 2019-cu ildə 10 dəqiqə 5 saniyə, 2020-ci ildə 9 dəqiqə 40 saniyə, 2021-ci ildə 8 dəqiqə 31 saniyə təşkil olunduğu halda, bu il 7 dəqiqə 31 saniyə təşkil edib.

2019-cu ilin may ayından 5 DOST mərkəzi açılıb. Sosial sahələrə aid 154 xidmətin "bir pəncərə"dən, operativ və şəffaf şəkildə təqdim olunduğu bu mərkəzlərdə ötən dövrdə 1 milyon 50 mindən çox vətəndaşa xidmət göstərilib.

### ◆ Dünyanın neft regionlarında



## Qazaxıstanın zəngin "Kaşaqan"ı

**"Kaşaqan" yatağı Xəzərin Qazaxıstan sektorunda, Atırau şəhərindən 80 kilometrlik məsafədə yerləşir. Burada şelfin dərinliyi 3-7 metr arasında dəyişir. Yataq 2000-ci il iyunun 30-da "Vostok-1" quyusundan alınan nəticəyə əsasən açılıb. Bu, son onilliklər dünyada kəşf edilmiş ən zəngin karbohidrogen yataqlarından biridir.**

"Kaşaqan"ın mövcudluğunu geofiziklər hələ sovet dönəmində bildirmişdilər. Onlar bu fikri 1988-1991-ci illərdə apardıqları axtarış-seysmik işlərinin nəticəsində söyləmişdilər.

Həmin məlumatın verilməsi qazax şifahi xalq yaradıcılığının görkəmli bilicisi, şair Kaşaqan Kurjimanulının (1841-1929) anadan olmasının 150 illiyinə təsadüf etmiş və bu hadisələrin üst-üstə düşməsi gələcəkdə tam təsdiqini tapacaq yeni böyük yatağın adını müəyyənləşdirmişdi.

"Kaşaqan" bütün türkdilli xalqların bildiyi və azacıq dəyişikliklə işlətdiyi sözdür. Mənasının kökündə qaçmaq anlayışı dayanır. "Kaşaqan" sözü Azərbaycan dilində "qaçağan" kimi səslənir... Beləliklə, "Kaşaqan" uğurlu adı ilə xeyir-dua aldı.

"Kaşaqan"ın mənimsənilməsi və qiymətləndirilməsi üçün genişmiqyaslı iş aparıldı. Belə ki, bu məqsədlə iki süni ada yaradıldı və 6 ( "Vostok-1", "Vostok-2", "Vostok-3", "Vostok-4", "Vostok-5 və "Zapad-1") kəşfiyyat-qiymətləndirmə quyuları qazıldı. Yatağın şərq hissəsində qazılan birinci quyudan hasilat alındıqdan sonra növbəti ilin yazında qərb hissəsindəki daha bir quyu neft verdi.

Yataqdan sənaye üsulu ilə hasilata 2013-cü il sentyabrın 11-də başlandı. Sonra müəyyən texniki səbəblərdən karbohidrogenlərin çıxarılması dayandırıldı və yanız bir neçə ildən sonra - 2016-cı ilin payızında hasilat bərpa edildi.

Bir sıra digər nəhəng yataqlar, məsələn, bizim "Günəşli", "Azəri", "Şahdəniz" kimi, "Kaşaqan" da ayrı-ayrı hissələrin birləşməsini təşkil edir. Belə ki, o, üç hissədən - "Şərqi Kaşaqan", "Qərbi Kaşaqan" və "Cənub-Qərbi Kaşaqan"dan ibarətdir. Yatağın istismarı layihəsi təcrübə-sənaye işlənməsi və tammiqyaslı işlənmədən ibarətdir. Birinci layihə öz növbəsində iki fazaya bölünür.

Qazaxıstan geoloqları "Kaşaqan"ın neft ehtiyatlarının 4,8 milyard ton olduğunu deyirlər. Operator olan şirkət isə yatağın ehtiyatlarını 38 milyard barel və ya 6 milyard ton həcmində qiymətləndirir və bunun 10 milyard barelinin çıxarıla biləcək ehtiyatlar olduğunu söyləyir.Verilən məlumatlara görə, "Kaşaqan"ın bir trilyon kubmetrdən çox təbii qaz ehtiyatları da var.

Təbii ki, böyük yataqların işlənməsi böyük zəhmət və vəsait tələb edir. Həmçinin onların yerləşdiyi təbii şərait heç də sadə olmur. O cümlədən "Kaşaqan"ın yerləşdiyi ərazi də qarşıya özünəməxsus çətinliklər çıxardı. Belə ki, şelf zonası, dayazsulu sahə, ilin bir neçə ayı ərzində suyun donması, ehtiyatların dərinlikdə (4800 metrə qədər) yerləşməsi, yüksək lay təzyiqi və digər səbəblər üzündən yatağın işlənməsi mürəkkəb şəraitdə həyata keçirilir.

Statistik məlumatlara görə, 2016-cı ildə "Kaşaqan"dan 1,2 milyon, 2017-ci ildə 8,35 milyon, 2018-ci ildə 13,2 milyon ton neft hasil olunmuşdur. 2019-cu ildə hasilat bir qədər azalsa da, 2020-ci və 2021-ci illərdə bir neçə milyon ton artmışdır. Bu il üçün də əvvəlcədən keçən ildə olduğu qədər, yəni 16,5 milyon ton neft çıxarılması planlaşdırılmışdır.

"Kaşaqan" yatağı "Şimali Xəzər" layihəsi çərçivəsində işlənir , operatoru birgə beynəlxalq "North Caspian Operating Company" (NCOC) şirkətidir. Maraqlıdır ki, Azərbaycanın iri neft-qaz və ixrac layihələrində iştirak edən tanınmış şirkətlər, məsələn, Fransanın "TotalEnergies", ABŞ-ın "EksonMobil", İtaliyanın "Eni", Yaponiyanın "İnpeks"şirkətləri "Kaşaqan"da da tərədaşlıq edirlər.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev keçən ilin aprelində "Kaşaqan" yatağının həmin ilin sonunadək tammiqyaslı inkişaf planının təsdiqləməsi barədə göstəriş vermişdir. Dövlət başçısının sözlərinə görə, istehsal olunan neft həcmini ildə 15 milyon ton artırmaq mümkündür. Nəticədə iş yerləri açılacaq, yerli xidmət şirkətləri, kiçik və orta sahibkarlar üçün geniş imkanlar yaradılacaq.

Prezident həmçinin bildirmişdir ki, bölgə iqtisadiyyatının inkişafı üçün böyük gözləntilər neft və qaz kimyası ilə əlaqələndirilir. Bu da regionun və bütün ölkənin gələcək iqtisadiyyatının təməlidir.

Bu il iyunun 1-də əməliyyatçı NCOC şirkəti "Kaşaqan" yatağının dənizdə və quruda yerləşən kompleksinin istehsalat obyektlərinin təmirə dayandığını elan edib. Bu cür təmirlər planlı xarakter daşıyır və adətən bir neçə ildə bir dəfə həyata keçirilir. "Kaşaqan"dakı təmir - profilaktika da hasilat sisteminin təhlükəsizliyinə, istehsalın artımına, bir sıra digər işlərin və layihələrin gerçəkləşməsinə yönəldilir. Ayyarımlıq bu müvəqqəti dayandırmadan sonra "Kaşaqan" təbii ki, öz sərvətlərini daha səxavətlə üzə çıxaracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Taxılçılıqla bağlı bölgə müşavirəsi keçirilib

**Ölkənin ən böyük taxılçılıq rayonu olan Şəkidə "Taxılçılıqda mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzusunda bölgə müşavirəsi keçirilib.**

Bildirilib ki, ölkədə kənd təsərrüfatının bütün sahələri kimi, taxılçılığın da inkişafına xüsusi diqqət yetirilir. Taxıl əkinləri subsidiyalaşdırılır, bu sahəyə dövlət dəstəyi mexanizmləri genişləndirilir, məhsuldarlığın artırılması, taxılçı fermerlərin gəlirlərinin artması üçün müvafiq tədbirlər görülür. Payızlıq əkinlər ərəfəsində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fermerlər arasında maarifləndirmə işləri aparılır, fermerlərin sertifikatlaşdırılmış keyfiyyətli toxuma çıxışını təmin etmək üçün toxum sərgi-satış yarmarkaları keçirilir.

Müşavirədə torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla əkin sahələrinin vaxtında şumlanması, torpaqda olan nəmliyin maksimum dərəcədə qorunması, düzgün toxum seçimi, aqrotexniki qulluq qaydalarının vaxtında və düzgün aparılması, payızlıq əkin bəyanlarının dekabrın 31-dək Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edilməsi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb, fermerləri maraqlandıran suallar cavablandırılıb, səsləndirilən təkliflər qeydə alınıb.

## "Azərbaycanda məşğulluğa dəstək" layihəsi üzrə ilin əvvəlindən 4800-dək işsiz üçün kiçik bizneslər qurulub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi çərçivəsində avqust ayında həssas qruplara aid 1000-dək işsiz şəxs üçün kiçik bizneslər yaradılıb.



Layihənin məqsədi işsiz kimi qeydiyyatda olan əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, keçmiş məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar, qadınlar, gənclər və həssas qruplardan olan digər şəxslərin özünüməşğulluq üzrə kiçik biznesə, layiqli məşğulluğuna çıxışına şərait yaradılmasıdır.

Bu ilin ötən dövründə proqram çərçivəsində 4800-dək işsiz şəxs üçün kiçik bizneslər qurulub.

Ümumilikdə cari il üzrə 6 mindən çox işsiz şəxsin "Azərbaycanda məşğulluğa dəstək" layihəsinə cəlb edilməsi planlaşdırılır. Layihəyə cəlb olunan işsiz şəxslərə 29 iqtisadi fəaliyyət istiqaməti üzrə biznes zərflər təqdim edilir.




## 2022-ci il "Şuşa ili"dir

# Milli Kitabxana Şuşanın tarixi-mədəni irsini təbliğ edir

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə 2022-ci il "Şuşa ili" elan edilmişdir. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.**

44 günlük Vətən müharibəsində qazandığımız və Azərbaycan tarixinin şanlı səhifəsini təşkil edən tarixi qələbənin "son nöqtəsi"nin qədim Şuşa şəhərinin erməni işğalından azad olunması ilə qoyulması böyük əhəmiyyət kəsb edirdi. Cənab Ali Baş Komandanın tarixi qələbəmizi məhz Şuşanın azad olunması günü elan etməsinin də böyük mənası vardı, bu qədim şəhərin ölkəmiz və xalqımız üçün daşıdığı mənəvi dəyərin ifadəsi idi. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, Şuşanın əsasının qoyulmasının 270 illiyinin qeyd olunması və 2022-ci ilin "Şuşa ili" elan edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamları bu şəhərin tariximiz, mədəniyyətimiz üçün vacib rol oynayan bir məkan olduğuna dəlalət edən mühüm addımdır. Dövlət başçımızın imzaladığı bu tarixi sənədlərin icrasını təmin etmək məqsədilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası da bir sıra əhəmiyyətli işlər görür. Belə ki, Şuşa şəhərinin tarixinin və mədəni irsinin dünyaya tanıdılması və daha geniş təbliği məqsədilə çoxsaylı layihələr həyata keçirməyə başlamışdır.

Milli Kitabxananın həyata keçirdiyi ilk layihə "Şuşamızı dünyaya tanıdaq" olmuşdur. Bu layihə çərçivəsində Şuşanın zəngin mədəniyyətini, tarixini, mənəvi dəyərlərini, görkəmli şəxsiyyətlərini dünyaya tanıtmaq yönündə Azərbaycan mədəniyyətinin paytaxtı olan bu qədim şəhərimiz haqqında tarixi və ədəbi-bədii materialların təbliği xüsusi diqqət kəsb edir. Azərbaycan Milli Kitabxanasının "Nadir kitablar" kolleksiyasında Qarabağın və Şuşa şəhərinin tarixinə dair çox qiymətli sənədlər və materiallar mühafizə olunur. "Şuşa ili" ilə əlaqədar həyata keçirdiyimiz "Şuşamızı dünyaya tanıdaq" layihəsi çərçivəsində qarşımızda duran əsas vəzifələrdən biri də bu materialların kitabxananın saytı vasitəsilə dünya oxucularının diqqətinə çatdırmaqdır. Ağa Məhəmməd şah Qacarın Azərbaycan və Gürcüstana yürüşü, Şuşanın - Pənahabadın mühasirəsi ilə bağlı tarixi hadisələrin yer aldığı və 1853-cü ildə nəşr olunmuş İran tarixçisi Rzaqulu xan Hidayətin "Rövzət əs-səfa" əsərinin 9-cu cildi, Şuşanın coğrafi mövqeyi, Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşa qalasının əsasının qoyulması haqqında V.M.Sısoyevin 1930-cu ildə Bakıda nəşr olunan "Краткий путеводитель по наиболее известным памятникам древности и природы в Азербайджане", Yelizavetpol quberniyası Şuşa qəzasının Daşaltı kəndinin ərazisi, təbiəti, əhalisi, adət-ənənəsi, əhalinin məşğuliyyəti və s. haqqında məlumatların əhatə olunduğu 1898-ci ildə Tiflisdə nəşr olunmuş "Сборник материалов для описания местностей и племен Кавказа" məcmuəsinin 25-ci buraxılışı dünya ictimaiyyətinin istifadəsinə verilmişdir. Azərbaycan adlanan ərazilərin coğrafi sərhədləri, siyasi mövqeyi və əhəmiyyəti, hökmdarları və onların təsir qüvvəsi haqqında S.D.Burnaşevin 1793-cü ildə Kurskda nəşr olunan "Описание областей Адребижанских в Персии и их политического состояния", Qarabağ sözünün etimologiyası, ərazisi, Türkmənçay müqaviləsi nəticəsində Rusiya imperiyasına ilhaqı haqqında məlumatların öz əksini tapdığı fransız müəllifi M.L.Dibönin 1841-ci ildə Parisdə nəşr olunmuş "İran", 1897-1898-ci illərdə müəllifi Mir Möhsün Nəvvab olan, Şuşada şəxsi litoqrafiya mətbəəsində nəşr olunmuş "Divani-farsi", "Kitabi-kəşfül-həqiqeyi-məsnəvi min mövzuat və mənzumati-cənabi Nəvvab", Şuşanın memarlıq abidələrinin, Şuşa qalasının şimal qapılarının, İbrahim xan, Xan qızı Natəvan, Mehmandarov, Nəsib bəy və digər görkəmli şəxsiyyətlərin evlərinin şəkillərinin təsviri olan 1950-ci ildə Bakıda nəşr olunmuş "Памятники архитектуры Азербайджана" və digər qiymətli sənədlər seçilərək kitabxananın saytı vasitəsilə dünya oxucularına təqdim olunmuşdur.

Kitabxananın dövri mətbuat arxivində 1919-cu ildə rus dilində nəşr olunmuş "Azərbaycan" qəzetinin 31-ci sayında A.Şepotyevin "Карабах" adlı məqaləsi diqqəti çəkir. Məqalədə Ermənistan hökumətinin Qarabağla bağlı iddialarının nə tarixi, nə iqtisadi, nə də epiqrafik məlumatlarla əsaslandırılmadığı fikri yer almışdır. Qarabağla bağlı bu oçerk Qarabağdan xəbəri olmayan və erməni mənbələrindən birtərəfli şəkildə məlumatlandırılan hər kəsə ermənilərin iddialarının tamamilə əsassız olduğunu göstərir.

Şuşa ilə bağlı təqdim olunan materialların Milli Kitabxana tərəfindən hazırlanan elektron məlumat bazalarında və virtual sərgilərdə əksi də çox mühümdür. Kitabxanada Şuşa mövzusu ilə əlaqədar hazırlanan elektron məlumat bazalarında qədim şəhərin tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətinə, yaradıcılığına dair tammətnli resurslar, rəsmi sənədlər, fotolar, onların xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar materiallar təqdim olunur. İl ərzində kitabxanada "Susa - Azərbaycanın mədəniyyət paytaxtı", "Biz səni dirçəldəcəyik, əziz Şuşa", "Üzeyir Hacıbəyli", "Əbədiyaşar sənətkar Bülbül", "Əbdürrəhim bəy Haqverdiyev", "Əhməd bəy Ağaoğlu", "Molla Pənah Vaqif", "Xurşidbanu Natəvan" adlı elektron məlumat bazaları hazırlanaraq ictimaiyyətə təqdim olunub. 2022-ci ilin birinci yarısında Şuşa mədəniyyətinin dünyada tanıdılması məqsədilə Milli Kitabxananın əməkdaşları tərəfindən Azərbaycan və ingilis dillərində Qarabağ bölgəsinin qədim yaşayış məskənlərini, xəritələr, fotolar, tarixi-memarlıq abidələri və onlar haqqında məlumatlar təqdim olunmaqla "Qarabağ abidələri", Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhəri əhalisinin geyim mədəniyyətini əks etdirən "Şuşa milli geyimləri", Şuşa şəhərinin sənətkarlarının hazırladığı zərgərlik nümunələrini, onların təsnifatı, haqqında məlumatları, əyani-vizual görüntülərini özündə əks etdirən "Şuşa zərgərlik məmulatları", Şuşa şəhərinin XIX əsr tikmə nümunələrini əks etdirən "Şuşa əl işləri", "Şuşa məişət əşyaları" adlı Azərbaycan və ingilis dillərində virtual sərgilər hazırlanaraq yayımlanmışdır.



"Şuşanın inciləri" layihəsi çərçivəsində həyata keçirilən ilk tədbir Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi barədə imzaladığı sərəncamdan dərhal sonra bu mövzuda materialların, tarixi sənədlərin, ktab və məqalələrin yer aldığı fundamental biblioqrafiyanın tərtibi istiqamətində işlərin başlanması olmuşdur. Qısa zamanda mövzuya dair tarixi mənbələr və arxiv materialları araşdırılaraq Şuşanın tarixi, "Ermənilərin Şuşa şəhərində həyata keçirdikləri soyqırımları tarixi mənbələrdə (1905-1989)", "Şuşanın erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi (1990-2020)", "Şuşa, sən azadsan!", Şuşaya həsr olunmuş ilk fundamental "Şuşa Azərbaycanın mədəniyyət paytaxtı" adlı biblioqrafiya və Azərbaycan Milli Kitabxanasının 2006-cı ildən nəşrinə başladığı, "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı "Xan Şuşinski: Biblioqrafiya" kitabı çap edilmişdir. Bu kitablar Azərbaycan, ingilis və rus dillərində olmaqla, bütün dünya oxucularının ixtiyarına verilmişdir ki, bu da cənab Prezidentin çağırışına müvafiq olaraq Azərbaycanın dünyaya tanıdılması istiqamətində Milli Kitabxananın həyata keçirdiyi layihələrin davamı hesab oluna bilər. Hazırda Milli Kitabxananın əməkdaşları tərəfindən bu layihə çərçivəsində "Şuşanın tarixi" adlı biblioqrafiya kitabı nəşrə hazırlanır.

Milli Kitabxananın əməkdaşları tərəfindən "Şuşa ABŞ və Böyük Britaniya mətbuatında (1827-1915)" adlı kitab nəşrə hazırlanır və bu kitabda Şuşanın tarixinə dair Qərb mətbuatında - xüsusilə də 1827-1915-ci illərdə ABŞ və İngiltərə qəzetlərində maraqlı və dəyərli məlumatlar əhatə olunmuşdur. Bu materiallar ilk dəfə olaraq tədqiqata cəlb olunub və geniş oxucu kütləsinə bir nəşr formasında təqdim olunacaqdır. Materiallarda Şuşanın, Qarabağın tarixi adı təhrif olunmadan düzgün formada qeyd olunmuşdur. Kitaba daxil edilən materiallar Şuşada keçirilən məhərrəmlik məclislərindən, Şuşada 1905-1906-cı illərdə ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımlarından, aclıq çəkən əhaliyə göndərilən humanitar yardımları əngəlləmək üçün törətdikləri vəhşiliklərdən, çar hökumətinin Şuşanın türk-müsəlman əhalisini ermənilərlə qarşı-qarşıya qoymaq üçün həyata keçirdiyi təxribatçı siyasətindən bəhs edir. Eyni zamanda 1892-ci ildə Şuşada yayılan vəba xəstəliyi və onun fəsadlarından, Şuşa şəhərinin memarlıq quruluşuna, əhalinin geyiminə görə tarixi Azərbaycan şəhəri olmasını təsdiq edən məlumatlardan, rus rəssam Vasili Vereşşaginin 1865-cı ildə Şuşada çəkdiyi fotolardan ("Şuşa məscidi", "Şuşada məhərrəmlik", "Müsəlman məktəbi", "Şuşada varlı tatar (Azərbaycan türkünün) evinin zalı" və s., Qarabağın əsas şəhərinin Şuşa olmasından, 1813-cü il Gülüstan müqaviləsindən, çar Rusiyasının Qafqazda ruslaşdırma siyasəti və bu tədbirini pərdələmək üçün atdığı addımlardan, Şuşadan XX əsrin əvvəllərində yerli əhalinin köçə məcbur edilməsi, bu təşəbbüsə səbəb olanların həbs edilərək sürgün edilməsi və başqa maraqlı məlumatlardan ibarətdir.

Eyni zamanda Milli Kitabxanada hazırlanan "Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" adlı cari biblioqrafik informasiya göstəricisində də "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır" mövzusunda ayrıca rubrika ayrılmışdır və burada il ərzində müvafiq mövzuda dərc olunan bütün dövri mətbuat materialları ayrıca olaraq tammətnli resursların linkləri ilə verilir. Bu elektron resursların tam mətnləri də kitabxanamızın saytı vasitəsilə bütün dünya oxucularının istifadəsinə verilir. Bunlardan "Xan Şuşinski - 120", "Qarabağın görkəmli simaları", "Dünya Azərbaycanlılarının V qurultayı", "Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə səfərləri", "Şuşa I Beynəlxalq Kulinariya Festivalı", "Şuşa mədəniyyətinin inciləri" layihəsi, "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı", "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans", "İNCSOS-Qarabağ" 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi", "Şuşada Vaqif Poeziya Günləri" və digər bu kimi mühüm əhəmiyyətli mövzulara həsr olunmuş məqalələr müvafiq rubrikalarda toplanaraq tammətnli linklərlə verilmişdir. Eyni zamanda biblioqrafik informasiya göstəricisində materialların tam elektron mətnini Milli Kitabxananın saytı və elektron kataloqu vasitəsilə açıb oxumaq mümkündür.

Son on beş ildə dövlət başçısı cənab İlham Əliyevin sərəncamları ilə təşkil edilən yubiley tədbirlərinin keçirilməsində Milli Kitabxanada görkəmli şəxsiyyətlərə və əlamətdar tarixi hadisələrə dair 70-dən artıq fundamental biblioqrafik vəsaitlər tərtib edilərək çap olunmuşdur.

2021-ci ilin yanvar ayından Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın "Qarabağa kitabla gedək" adlı birgə layihəsinə start verilmişdir. Bu layihənin əsas məqsədi 30 il ərzində Ermənistanın işğalı altında qaldığı dövrdə erməni vandalları tərəfindən tamamilə dağıdılmış 275 kitabxananın vəhşicəsinə yandırılmış 4 milyon 600 min nüsxə kitab fondunun bərpa olunmasında yaxından iştirak etməkdən ibarətdir. Kütləvi informasiya vasitələrilə bütün ziyalılara, yazıçılara, alimlərə, naşirlərə, gənclərə müraciət edərək onları bu kampaniyaya qoşulmağa çağırmışıq və bizim səsimizə səs verən Azərbaycan vətəndaşlarının, ayrı-ayrı təşkilatların bu layihədə fəal iştirakı sayəsində bu günədək 100 min nüsxəyədək qiymətli kitab toplanmışdır. Bu kitablar işğaldan azad olunan ərazilərimizdə bərpa olunacaq kitabxanalarımızın kitab fondlarının formalaşdırılması zamanı istifadə olunacaqdır.

"Şuşa ili" ilə bağlı tədbirlər planına uyğun olaraq, Milli Kitabxanada bu istiqamətdə işlər davam edir.

***Ədibə İSMAYILOVA,***
***M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktor müavini, Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru***



# Qədim Şuşanın ilk kitabxanası

Otuz ilə yaxın Ermənistanın əsarətdə saxladığı qədim və əzəli Azərbaycan ərazilərində mədəni irsimizə, tarixi abidələrimizə vurduğu ziyanın, törətdiyi vandalizm aktlarının sayı-hesabı yoxdur. Onlardan biri də 1990-cı illərin əvvəllərində erməni qəsbkarlarının hücumlarına məruz qalanadək Qarabağın və Şərqi Zəngəzurun bütün yaşayış məntəqələrində fəaliyyət göstərmiş kitabxanalarımız oldu. Həmin kitabxanalar düşmənlərimiz tərəfindən yandırıldı, məhv edildi.

### Şuşalı ziyalıların elm, təhsil, ədəbiyyat barədə müzakirələr apardığı ünvan

Erməni vandalizminə məruz qalan kitabxanalarımızdan biri də Azərbaycanın tarixi mədəniyyət mərkəzi, Qarabağın baş tacı Şuşa şəhərinin ilk şəhər kitabxanası oldu. Kitabxananın bünövrəsi 1897-ci ilin fevralında şair, rəssam, astronom, alim, ədəbiyyatşünas, xəttat, musiqişünas Mir Möhsün Nəvvab tərəfindən qoyulub. Bu həm də Qarabağ ərazisində ilk kitabxana-qiraətxana idi.

Mir Möhsün Nəvvab Şuşanın mədəni və ictimai həyatında fəal iştirak edib. O, məktəblərdə dərs deyib, şeirlər yazıb, elm və incəsənətin müxtəlif sahələrinə həsr etdiyi iyirmidən artıq kitabın müəllifi olub. Mir Möhsün Nəvvab özünün açdığı mətbəədə kitablar nəşr etdirib. Onun təməlini qoyduğu kitabxananın fəaliyyətə başlaması əlamətdar hadisəyə çevrilib. Şuşanın ziyalılarının çoxu bu kitabxana-qiraətxanaya üzv olublar.

Məlumata görə, hərbçi Mehdiqulu xan Vəfa və həkim Kərim bəy Mehmandarovun da bu kitabxananın yaradılmasında böyük xidmətləri vardı.

Mir Möhsün Nəvvab açdığı kitabxananı yeganə oğluna, Şuşada şair kimi tanınan, Miriş Ağa təxəllüsü ilə şeirlər yazan Mir İbrahimə tapşırıb.

Tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayeva da Şuşada ilk kitabxananın XIX əsrdə yaradıldığını qeyd edib: "Apardığımız araşdırma nəticəsində aydın olur ki, Şuşa Realnı Məktəbinin fransız dili müəllimi Əhməd bəy Ağaoğlu 1896-cı ildə Şuşada müsəlman qiraətxanası adı ilə şuşalılar üçün yeni kitabxana açmışdır. Bəzi mənbələrdə qiraətxananın 3 il ərzində fəaliyyət göstərdiyi və kitab fondunun 500 nüsxəyə çatdığı da bildirilir. Şuşa əsrlərdən bəri xalqımızın mədəniyyət mərkəzi kimi tanınmış və ilk kitabxana kimi ilk kitab çapı da Şuşada baş tutmuşdur. Belə ki, o zaman Şuşada məktəb şəbəkəsinin genişlənməsi dərs kitablarına tələbatı artırmış və bu da öz növbəsində kitab çapını zəruri etmişdir. Dövrünün görkəmli şəxsiyyətlərindən, mütərəqqi ziyalılarından biri olmuş Mir Möhsün Hacı Seyid Əhmədoğlu Ağamirzadə Nəvvab Qarabaği (1832-1918) 1884-cü ilin əvvəlində daşbasma (litoqrafiya) üsulu ilə kitab çap edən mətbəə təşkil etmiş və burada dərs kitablarını, özünün, eləcə də müasirlərinin bir sıra məcmuələrini, dini risalələri çap etmişdir". Kitab çapı genişləndikcə onların toplandığı və istifadə edilə biləcəyi bir məkana da ehtiyac duyulduğunu vurğulayan tədqiqatçı qeyd edib ki elm öyrənmənin, kitabın, mütaliənin əhəmiyyətini anlayan ziyalımız M.M.Nəvvab 1903-cü ildə Gövhər ağa məscidinin həyətində növbəti kitabxana-qiraətxananı da açıb: "Hətta mənbələrdə bu kitabxanada onun oğlu Miriş Ağanın da çalışması barədə məlumatlar qeyd edilib. Nəvvabın mətbəəsində çap edilən kitablar Şuşa kitabxanalarında mühafizə edilir və geniş oxucu kütləsinə təqdim olunurdu. Dövrünün alimləri həmin kitabxanalarda toplaşır və elm, təhsil, ədəbiyyat barədə müzakirələr aparırdı. Beləliklə, Şuşada elmi, mədəni, ədəbi mühit formalaşırdı".

Araşdırıcı Şuşada 1924-cü ildə şəhər kitabxanası təşkil edildiyini, ilk zamanlar kitabxananın 4875 nüsxə kitab fondu, 269 oxucusu olduğunu yazıb: "1938-ci ildə Şuşa şəhər kitabxanasının fondunda 4875 nüsxə ədəbiyyat, 269 nəfər daimi oxucu, Şuşa rayon kitabxanasının fondunda isə 12000 nüsxə ədəbiyyat, 695 oxucu var idi. Həmin ildə Şuşada uşaq kitabxanası da yaradılmışdır".

### Ermənilər qədim və nadir kitabları yandırdılar, qiymətli nəşrləri məhv etdilər

1977-ci ilin mayında mədəniyyət nazirinin əmri ilə kitabxananın fəaliyyəti genişləndirilib və Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) kimi işlərini davam etdirib. O vaxt Mərkəzləşdirilmiş Kitabxana Sisteminə 1 mərkəzi kitabxana, 1 şəhər kitabxanası və 17 kənd kitabxana filialı daxil idi. Əhalisinin artması, oxucu tələbatının yüksəlməsi Şuşada yeni şəhər, uşaq və gənclər filiallarının yaradılmasını labüd etdi. Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1 mərkəz, 31 kitabxana filialı ilə fəaliyyət göstərməyə başladı. 1991-ci ilin məlumatına əsasən, Şuşa Rayon MKS-də işçilərin sayı 103 nəfər, kitabxana fondunun ümumi həcmi 200 min nüsxə, oxucularının ümumi sayı 10 min nəfər idi.

Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi bir sıra maraqlı tədbirlər hazırlayır, eləcə də respublika əhəmiyyətli "Xarıbülbül" Musiqi Festivalının keçirilməsində fəal iştirak edirdi.

1992-ci il mayın 8-də Şuşa rayonunun erməni silahlı qüvvələri tərəfindən işğal olunması nəticəsində 32 kitabxana və həmin kitabxanalarda saxlanan qədim və nadir kitablar yandırıldı və qiymətli nəşrlər məhv edildi. Təcavüzkar ermənilər kitabxanalarımızı dağıtmaqla dövlətimizə 1 milyon 106 min manat ziyan vurdular.

Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1993-cü ildə Bakı şəhəri Nərimanov rayonundakı bir binanın 3 otaqdan ibarət zirzəmisində öz fəaliyyətini davam etdirməyə başladı. Ağır şəraitdə öz vəzifəsini yerinə yetirən kitabxananın fonduna məxsus kitablar işğal zamanı məhv edilmişdi, nəşrləri Bakıya gətirə bilməmişdilər. Bərpa olunmuş kitabxana ziyalıların dəstəyi, səyləri ilə yeni kitab fondu ilə fəaliyyət göstərdi.

Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin çətinliklə də olsa, yalnız 3 filialı işğaldan sonra fəaliyyətini bərpa etdi.

"Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" adlı 2007-ci ildə işıq üzü görmüş ensiklopedik kitabda 2004-cü ildə kitabxana fondunun 11037 nüsxə, kitab verilişi 2370 nüsxə, oxucuların sayı isə 395 nəfər olduğu bildirilib. Həmin rəqəmlər 2005-ci ildə müvafiq olaraq 19000 nüsxə, 9800 nüsxə, 420 nəfər idi. 2015-ci ilin məlumatına əsasən, MKS-də kitab fondu 34912 nüsxə, oxucuların sayı 3871 nəfərə, kitab verilişi 49212-yə çatıb.

2020-ci ildə Vətən müharibəsində qazandığımız zəfərdən sonra başlanan və gündən-günə genişlənən tikinti-bərpa, quruculuq işləri nəticəsində Şuşanın keçmiş şöhrəti özünə qaytarılır.

Prezident İlham Əliyevin sərəncamı ilə 2022-ci ilin ölkədə "Şuşa ili" elan edilməsi xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edir.

Çox keçməyəcək ki, sakinləri Şuşaya dönəcəklər. Bu qədim şəhərdə həyat öz axarına düşəcək. Məktəblər, kitabxanalar, teatr binaları öz qapılarını elm öyrənmək istəyənlərin, mədəniyyət, incəsənət həvəskarlarının üzünə açacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ay Laçın, can Laçın!



**Qaytardıq! Bizdən nə almışdılarsa, hamısını bir-bir qaytarırıq. Əvvəlcə inamımızı qaytardıq.**

Sonra güc toplayıb, birliyimizi, qüdrətimizi qaytardıq. Bir millət, bir yumruq olub Qarabağımızı, şanımızı, şöhrətimizi qaytardıq! Vermək istəmirlər, gücümüzlə alırıq! İşğal etdikləri bəzi ərazilərimizi isə qanla, ölümlə, silahla yox, ağılla, məntiqlə, siyasətlə geri alırıq. Həm də bu etdiklərimiz dünyaya, insanlara kim olduğumuzun təqdimatıdır. Ədalətlə gedirik düşmənin üstünə.

Ermənilərdən fərqli olaraq yandırmırıq, dağıtmırıq, məhv etmirik, aldığımız torpaqlara həyat veririk, can veririk. Torpaqları, viran qalmış yurd yerlərini, dağıdılmış kəndləri həyata qaytarırıq. Qururuq, yaradırıq, yol, işıq, su çəkirik.

Biz hərəkətlərimizlə, insani davranışlarımızla, müdrikliyimizlə onlarda ölüb getmiş, unudulmuş insanlıq, xeyirxahlıq hissini də qaytarmağa çalışırıq.

Bu günlər Laçın şəhərini, Zabux və Sus kəndlərini qaytardıq. Artıq Müzəffər Azərbaycan Ordusu, istehkam bölüklərimiz bu ərazilərimizdə möhkəmləniblər. Zəfər bayrağımız Laçın şəhərində dalğalanır. Bu torpağın havası da, suyu da, ormanları da, şiş qayaları da dogma insanları, öz övladlarını görüb sevinir, xoş gəldin deyir. Xilaskar oğlu, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya qucaq açır. Əgər daşın, torpağın dili olsa, dil açıb danışar, xilaskarına minnətdar olar, səcdə edər. Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində, dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Laçın tarixi zənginliklərlə dolu bir ərazidir. Bu rayonda elə abidələr var ki, öz qədimiliyinə, yaşına görə eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıldakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər nadir abidələrdəndir.

Laçın Qarabağla mənfur qonşularımız arasında bir mərdlik qalasıdır. İnzibati sərhədlərini Dəlidağ, İşıqlı, Qırxqız dağ silsilələri cızan Laçını mütəxəssislərin fikrinə görə, tarix boyu torpağımıza göz dikənlər "Qarabağın qara qapısı" adlandırıblar.

Tarixi mənbələrdə Laçının "Abdallar" adlandırıldığı da qeyd edilir. Xalqımızın etnogenezisində iştirak etmiş tayfalardan biri də abdallar olub. Qədim türk soylarından olan abdalların Ön Asiya və Qafqazda məskunlaşması barədə mənbələrdə xeyli məlumatlar mövcuddur. Laçın Kiçik Qafqazın sərt dağlıq, meşəlik, ticarət yollarının kəsişmədiyi bir məkanda olmaqla, 3900 metr hündürlükdə qışı şaxtalı, yayı sərin olan yaylaqlarla zəngindir, sıldırım qayaları keçilməzdir.

Bu yerlərə yaylaq yolları ilə Cənubi Zəngəzurun, Qaradağın, Aran Qarabağın elatları gedib-gəlmişlər. Yerli insanlar elat nəzərə alınmazsa ancaq burada yaşayıb çoxalıblar. Buranın insanları dağətəyi mülayim iqlimli yerlərdə daimi məskən salmış, yaydan-yaya əhalinin əsasən kişiləri kəndlərindən yuxarıda yerləşən yaylaqlara heyvanatı sürmüş, bəzən də orada qoyub öz kəndinə əkin-biçinə qayıdırmışlar.

Laçın qəhrəmanlar yurdudur. Bu torpağın insanları bulaqları qədər saf, havası kimi təmiz, uca şiş qayaları qədər əzəmətli, mərd, mübarizdirlər. Adı ermənilərin canına qorxu salan Sultan və Xosrov bəy Sultanov qardaşları bu torpağın qəhrəman oğullarından olmuşlar. Sultan bəy 1871-ci ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında, hazırda Laçın rayonunun Kürdhacı kəndində doğulub. Sultan bəy Gəncə şəhərində gimnaziyada orta təhsilini tamamladıqdan sonra o dövrün ən mükəmməl məktəblərindən olan Sankt-Peterburq Hərbi Akademiyasına daxil olmuşdur. Lakin naməlum səbəblərə görə məktəbi bitirməmiş və o, doğma kəndinə qayıtmışdır. Cəsurluğu ilə ad çıxarmış Sultan bəy 1905-ci, 1906-cı və 1918-1919-cu illərin erməni-müsəlman hadisələri zamanı öz qəhrəmanlığı ilə tarix yazmağı bacaran nadir şəxsiyyətlərdəndir. Sultan bəyin qəhrəmanlığından söz düşmüşkən təkcə bircə faktı qeyd etmək yetərlidir. 1919-cu ilin fevral ayında Sultan bəy Laçının Zabux dərəsində Andronikin təxminən 30 minlik daşnak ordusunu darmadağın etmiş, bununla da onun Azərbaycan ərazisində erməni hakimiyyəti qurmaq planını alt-üst etmişdir. Bu əhvalatdan sonra bugünümüzə kimi el arasında Zabux dərəsi "Qanlı dərə" adlandırılır.

Xatırladaq ki, Sultan bəyin qardaşı Xosrov bəy Azərbaycan Demokratik Respublikasının ilk hərbi naziri, ikinci hökumətdə əkinçilik naziri və Qarabağın general-qubernatoru olub.

Xosrov bəy Sultanovun yalnız Zəngəzur və Qarabağın deyil, Kəlbəcər, Basarkeçər və digər ərazilərimizin də erməni quldurlarından qorunmasında əvəzsiz xidmətləri olmuşdur.

Hələ sağlığında əfsanəvi xalq qəhrəmanı adını qazanan Sultan bəy çox təəssüf ki, sovet hakimiyyəti qurulduqdan sonra mühacir həyatı yaşamışdır. Əvvəllər İranda mühacir həyatı yaşamağa məcbur olan Sultan bəy sonralar sovet imperiyasının göndərdiyi casuslar tərəfindən təqib olunduğundan 1923-cü ildə Türkiyəyə getmək məcburiyyətində qalır. 1955-ci ildə Türkiyənin Qars vilayətinin Köçqoy kəndində vəfat edən Sultan bəy mühacirətdə olarkən ailəsi müsibətlərlə qarşılaşmışdır, 1937-ci ildə həyat yoldaşı, 3 oğlu və bir qızı Qazaxıstana sürgün edilmiş, 1956-cı ilədək sürgün həyatı yaşamışlar.

Birinci Qarabağ savaşı başlayanda da Laçının mərd oğulları sinələrini düşmən qabağına vermişlər. Döyüşlərdə 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Mənfur ermənilər Laçını işğal etdikdən sonra xarakterlərinə uyğun olaraq bu ərazilərdə toponimlərin, inzibati yaşayış məntəqələrinin adlarını dəyişdirib, tarix və mədəniyyət abidələrini məhv etməyə çalışıblar. Laçın tarix, mədəniyyət və arxeologiya abidələri ilə zəngin bir ərazidir: mütəxəssislər hesab edirlər ki, rayonun Mirik kəndindəki "Qaranlıq kaha", "Bayqara" mağaraları, Hocaz kəndindəki mağara-məbəd, Güləbird kəndindəki "Qız qəbri" kurqanı, eləcə də Mirik kəndinin "Təpələr", Ziyrik kəndi ərazisindəki Rizvan meşələrində və digər yerlərdəki kurqanların mövcudluğu və çoxluğu əsas verir ki, bu bölgədə yaşayışın Neolit və Tunc dövrlərindən başlandığı haqqında fikir söylənilsin.

Rayon ərazisində Antik dövr daş abidələrindən sayılan qaya, daş üzərində insan, heyvan, quş və digər həndəsi təsvirlərə də rast gəlmək olur. Bu təsvirlər əsasən rayonun Qaragöl yaylağından, Pəri çınqılı adlanan ərazidən, Kəlbəcər rayonunun əraziləri istiqamətində uzanan silsilə çınqıl daşları üzərlərində oyulub. Bu təsvirlərin yaşı bəlkə də Qobustan qayaları üzərindəki təsvirlərin yaşı qədərdir.

1992-ci il mayın 18-də Laçın ermənilər tərəfindən işğal edildikdən sonra Zabux Qarabağın digər işğal olunmuş əraziləri kimi tamamilə yandırılaraq xarabazarlığa çevrilmişdir.

Zabux Həkəri çayı ilə Zabux çayının qovuşduğu yerdən, Çay qovuşan adlanan ərazidən bir qədər yuxarıda - iki çayın arasında, Zabux çayının sol sahilində yerləşirdi. Sonradan kənd bir qədər böyümüş - çayın o tayında Alxan dərəsində də evlər tikilmişdir. Laçın ərazisindəki ikinci böyük körpü bu kəndin ərazisindən - Zabux çayının üstündən keçir. Bura Minkənd çayı da deyirdilər. Kənd Laçının bir çox kəndləri kimi Ermənistanla sərhəddə yerləşirdi. Ermənistana gedən beynəlxalq avtomobil yolu və yeraltı rabitə xətti bu kəndin ərazisindən keçirdi. Üç kənddən ibarət Zabux, Sus, Qızılca "Komsomol" kolxozunun sovetliyi və bütün inzibati binalar, orta məktəb, mədəniyyət evi, bəzi iaşə obyektləri bu kənddə yerləşirdi. Kənddə qədimdən su dəyirmanı da olub. Heyvandarlıq təsərrüfatı olduğu üçün Zabuxda silos quyuları, böyük anbarlar, geniş ərazidə ot taya yerləri vardı. Kənddə yerli zabuxlularla yanaşı, qonşu Fətəlipəyədən, Fətəlipəyə qışlağından (Bağırbəylilər), Sus Xallanlısından və Sümüklüdən köçüb gəlmiş insanlar da məskunlaşmışdı. Ermənistan hökuməti 2003-cü ildən sonra Gorus rayonu ilə sərhəddə yerləşən, olduqca strateji əhəmiyyətə malik bu ərazilərdə Livandan köçüb gəlmiş erməniləri məskunlaşdırmağa başladılar. Hətta 2003-cü ildə ABŞ-ın maliyyə yardımı hesabına burada bir erməni kilsəsi də tikiblər.

Tarixi ədalət bərpa olundu. 26 avqust 2022-ci ildə üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq ordumuz Laçın şəhərini, Zabux və Sus kəndlərini nəzarətə götürdü. Bütün Qarabağ kimi, Laçını da yenidən qururuq. Laçında beynəlxalq hava limanı, yollar, suelektrik stansyaları tikilir. Tarixi abidələrlə zəngin, gözəl təbiəti ilə adamı valeh edən bu gözəl diyar tezliklə turistlərin üz tutduğu ən sevimli məkanlardan olacağı heç şübhəsizdir. Artıq Laçın səmalarında kor yapalaqlar deyil, Azərbaycan şahinləri, laçınlar uçuşur. İndi bu yerlərin sakinləri deyirlər: "Ay Laçın, can Laçın, tezliklə qoynuna sığınacağıq".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

◆ **Alim rəyi**

# Mövcud reallıq kənd təsərrüfatı kooperativlərinə yeni yanaşma tələb edir

Aqrar sektorun inkişafı Azərbaycan hökumətinin daim diqqət mərkəzindədir. Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lizenziyalaşmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin uzadılması bu sahəyə daim diqqət göstərildiyini sübut edir.

2001-ci ildən kənd təsərrüfatı torpaq vergisindən başqa, bütün növ vergilərdən azad edilmişdir. 2013-2021-ci illər kənd təsərrüfatında əsas kapitala qoyulan 4,6 milyard manat investisiyanın da 60 faizi dövlət investisiyaları olmuşdur. Əldə olunan uğurlara baxmayaraq, əsas kapitala investisiyalar vergi güzəştlərinin başlanıldığı 2001-ci illə müqayisədə 2021-ci ildə 2,8 dəfə artdığı halda, məhsul istehsalı cəmi 1,5 dəfə artmışdır ki, bu da investisiyaların iqtisadi səmərəliliyinin aşağı olmasını əks etdirir. Təsadüfi deyil ki, aqrar sektorda investisiyaların iqtisadi səmərəliliyi 2015-ci illə müqayisədə 1,7 dəfə aşağı düşmüşdür. Bu dövr kənd təsərrüfatında çalışanların sayı isə artaraq 2021-ci ildə 1,8 milyon nəfərə yaxın olmuşdur. Başqa sözlə, ölkə üzrə məşğul əhalinin 36 faizindən çoxu kənd təsərrüfatında çalışmışdır.

Azərbaycanda aqrar sektorun inkişafında aqroparklarla yanaşı, təşkilati-hüquqi forma kimi kooperativlər də böyük rol oynaya bilər. Lakin ölkədə nədənsə kooperativ hərəkatı zəif inkişaf edir. Halbuki inkişaf etmiş ölkələrdə kooperativlər kənd təsərrüfatının inkişafında ən güclü vasitə hesab edilir. Kooperativləşməni stimullaşdırmaq məqsədilə Kanadada, Yaponiyada və Avropa İttifaqı ölkələrində kooperativlərə güzəştli kreditlər verilir, əlverişli vergilər tətbiq edilir, fermerlərə məxsus geniş emal və ticarət müəssisələri yaradılır. Həmin ölkələrdə torpaq bankları, kredit və sığorta kooperativləri fəaliyyət göstərir. Kənd təsərrüfatı maşınları, yem, gübrə, dərman vasitələrinin istehsalı üçün kooperativlərin assosiasiyaları və elmi-tədqiqat kooperativləri yaradılır. Bütün bunlar nəticəsiz qalmır. Məsələn, Şimali Avropa ölkələrində ət məhsullarının 80, Norveç və Finlandiyada süd məhsullarının hamısı və ümumilikdə qida sənayesinin 55 faizi kooperativlərdə istehsal olunur. Kooperativlərin birliyi sayəsində ortadakı vasitəçilər bazardan sıxışdırılıb çıxarılır. Bunlardan əlavə, kooperativlərin təkmilləşdirilməsi üçün dövlət hesabına müxtəlif proqramlar maliyyələşdirilir. Kooperativlər həmçinin özlərinin sənaye və ticarət müəssisələrini yaradır, birləşərək iri kooperativ kimi bazara daxil olur, müxtəlif sahələr üzrə ixtisaslaşırlar.

Kənd təsərrüfatının gəlirlə işlədiyi ölkələrdə dövlət siyasətinin əsas məqsədi torpaqdan səmərəli istifadə etməklə məhsul istehsalını artırmaqdır. Fermerlərin Yaponiyada 97, İtaliyada 76, Belçikada 33, Hollandiyada 28 faizi 5 hektardan az torpaq sahəsindən istifadə edir. Fransada isə 5 hektardan az torpaq sahəsi olan fermer yoxdur. Həmin ölkədə torpaq sahəsi 10 hektardan çox olan fermerlərin xüsusi çəkisi 80 faizdir. İsveçdə bu rəqəm 69, Hollandiyada 58, Belçikada 52, Danimarkada 84, Yeni Zelandiyada 79, İtaliyada 12 faiz təşkil edir.

Azərbaycana gəldikdə, ölkəmizdə də kooperativlər fəaliyyət göstərir. Məsələn, 2016-cı ilin əvvəllərində Salyan rayonunun Qarabağlı, Kərimbəyli, Təzəkənd və Kolanı kəndlərini əhatə edən və 5 torpaq sahibinin təsisçiliyi ilə "Qarabağlı Kollektiv İstehsalat Təsərrüfatı" yaradılmışdır. İsmayıllı rayonunun Külüllü kəndi ərazisində isə "Külüllü kənd təsərrüfatı məhsullarının istehsalı" kooperativi fəaliyyət göstərir. Kooperativdə 29 nəfər torpaq mülkiyyətçisi ilkin mərhələdə 140 hektardan artıq pay torpaq sahələrini, texnika və digər istehsal vasitələrini cəmləyərək birgə təsərrüfat forması yaratmışdır. Bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı əkin torpaqlarının da əkilib-becərilməsi barədə kooperativ üzvləri qarşılıqlı razılıq əldə etmişlər.

2016-cı ildə qəbul edilmiş "Kənd Təsərrüfatı Kooperasiyası haqqında" qanunda deyilir ki, kənd təsərüfatı istehsal kooperativi kənd təsərrüfatı məhsulları istehsalçıları olan fiziki şəxslərin şəxsi əməyi ilə iştirakına əsaslanan birgə istehsalat və digər təsərrüfat fəaliyyəti yerinə yetirmək üçün birləşərək yaradılan hüquqi şəxsdir (maddə 1.1.3). Qanunun bu maddəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 109-cu maddəsinə uyğun deyil. Belə ki, məcəllənin 109-cu maddəsində yazılıb ki, kooperativ fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyidir. İştirakçılarının maddi və başqa tələbatının ödənilməsi məqsədilə onun üzvlərinin əmlak pay haqqı birləşdirilir. Kooperativ üzvünün əmlak pay haqqı nizamnamə ilə müəyyənləşdirilən qaydada və həcmdə üzvlər tərəfindən ödənilən daşınar və (və ya) daşınmaz əmlakdan, habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarət olan pay haqqıdır. Əmlak pay haqqı mütləq və əlavə ola bilər. Mütləq əmlak pay haqqı üzv tərəfindən mütləq qaydada ödənilən, kooperativin fəaliyyətində iştirak etmək, səs vermək və əsas kooperativ ödənişlərini almaq hüquqi verən əmlak payıdır. Əlavə pay haqqı kooperativ üzvü tərəfindən öz arzusu ilə ödənilən və dividend almaq hüququ verən paydır.

Qanunda "kənd təsərrüfatı məhsulları istehsalçısı" anlayışının mahiyyəti açıqlanaraq yazılmışdır ki, kənd təsərrüfatı məhsullarının istehsalçısı əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxsdir. Belə olan halda 1.1.3. saylı maddədə ancaq fiziki şəxslərin birləşməsi əsasında kooperativin yaradılması məntiqsiz görünür. Çünki kənd təsərrüfatı məhsullarının istehsalı ilə və ya hansısa xidmət göstərən hüquqi şəxsin kooperativin təsisçilərindən olması məntiqə uyğün bir haldır və təbiidir.

Mülki Məcəlləyə uyğun olmayan digər müddəa kooperativin fəaliyyətində fiziki şəxslərin ancaq öz şəxsi əməkləri ilə iştirakının nəzərdə tutulmasıdır. Kooperativin üzvü kooperativə əmlak pay haqqı verməlidir ki, bu da kooperativin pay fondunu təşkil edir (maddə 110-1.1). Mülki Məcəllədə tələb olunur ki, kooperativin üzvü kooperativ qeydə alınanadək pay haqqını tamamilə verməlidir (maddə 110.2).

Kooperasiya haqqında qanunda deyilir ki, kooperativin üzvləri öz torpaqlarını kooperativin istifadəsinə və ya icarəsinə verə bilər. Həmin torpaqlar onların əmlak pay haqqına aid edilmir (maddə 10). Qanuna görə, kooperativ üzvlərinin hər biri eyni səs hüququna (bir üzv-bir səs) malikdir. Burada diqqət yetirməli məqam ondan ibarətdir ki, kooperativ üzvünün payının məbləği müəyyən edilmir və nəzərə alınmır. Bizim fikrimizcə, kooperativin ümumi yığıncağında səsvermə hüququ bir səsin pay dəyəri prinsipi əsasında həyata keçirilməlidir. Bir üzvün payı nə qədər çox olsa, bir o qədər də səsə malik olmalıdır.

Torpaqların kəndlilərin mülkiyyətinə verilməsi nəticəsində bu gün Azərbaycan fermerləri fərdiçiliyə üstünlük verirlər. Kooperativləşmənin normativ hüquqi bazası formalaşdırılarkən bu milli xüsusiyyətlər hökmən nəzərə alınmalı idi. Odur ki, indi yerlərdə fermerlər arasında kooperativləşmə ilə bağlı təbliğat-təşviqat işləri genişləndirilməlidir. Bunun üçün, fikrimizcə, kooperativlərin təşkilati-hüquqi forması elə seçilməlidir ki, kooperativə daxil olanların istehsala (xidmətə) aid olan daşınan və daşınmaz əmlakı torpaq sahəsi də daxil olmaqla bazar qiymətləri ilə dəyərləndirilsin və kooperativin nizamnamə kapitalına pay kimi daxil edilsin. Başqa sözlə, kooperativlərin kollektiv mülkiyyətə əsaslanması zəruridir. Kooperativi tərk edərkən onun üzvü pay kimi nizamnamə kapitalına qoyduğu və digər əmlakını natura və ya dəyər formasında geri götürmək hüququna malik olmalıdır. Hesab edirik ki, ancaq belə təşkilati-haqqi formada kooperativin üzvü bütünlükdə kolektivin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəli olmasında maraqlı ola bilər. Yəni digər iqtisadi sahələrdə olduğu kimi, aqrar sektorda da kooperativlər kollektiv mülkiyyətə əsaslanmalıdır. Kooperativlərin formalaşmasını stimullaşdırmaq məqsədi ilə dövlətin maliyyə resursları yalnız kooperativlər vasitəsilə aqrar sektora istiqamətləndirilməlidir. Vergi güzəştlərinin kooperativlərə 3-5 il müddətində verilməsi də ədalətli olardı. Özü də bu güzəştlərdən əldə olunan qənaətlərin investisiya məqsədləri üçün kooperativdə istifadə olunması qanunvericilik aktlarında nəzərdə tutulmalıdır.

Mühüm məsələlərdən biri də kənd təsərrüfatı məhsullarının satışının sivil sistemini qurmaqdır. Bu problemi həll etmək məqsədilə Prezidentin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamında ölkə ərazisində tədarük-satış bazalarının, ticarət şirkətlərinin, logistik və topdansatış mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur. Məlumdur ki, Prezidentin 11 aprel 2016-cı il tarixli sərəncamı ilə "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Nizamnamə kapitalı dövlət büdcəsinin vəsaiti hesabına formalaşan ASC-nin yaradılmasında əsas məqsəd dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etməkdir. Hesab edirik ki, quruma ərzaq məhsullarının idxalına icazə verildiyi kimi, həmin məhsulları ixrac etmək və daxili bazarda satışını həyata keçirmək səlahiyyəti verilməsi də düzgün olardı. Bu addım istehsalçıları və ölkə əhalisini möhtəkirlərdən, inhisarçılardan qoruya bilər. İndi problem ondan ibarətdir ki, daxili bazarda məhsul istehlakçıya çatanadək 3-4 dəfə əldən-ələ keçir ki, bu da sonda süni bahalaşmaya səbəb olur. Məsələn, kərə yağının 1 kiloqramının idxal qiyməti 5-6 dollar olduğu halda, Bakı marketlərində 9,5-10 dollara satılır. Digər zəruri ərzaq məhsullarının qiymətləri də təxminən eyni yolla formalaşır. Bunun qarşısının alınması yollarından biri əsas kənd təsərrüfatı məhsullarına dövlət sifarişinin tətbiq edilməsidir.

***Tofiq HÜSEYNOV,***
***iqtisad elmləri doktoru, professor,***
***Əməkdar iqtisadçı***



**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 28 oktyabr (bazar ertəsi günü) tarixli XXIV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**




# AZƏRBAYCAN

Düşənbə, 21 məhərrəmülhəram sənə 1337. 28 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə
"Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35,
başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12,
başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.


## ELAN

İqamətgah təəyyün [təyin edilməsi] və təxsisi [ayrılması], Azərbaycan Cümhurriyəti Daxiliyyə Nəzarətincə [Daxili İşlər Nazirliyi tərəfindən] icra edilməkdə isə də, zabitan [zabitlər] bu xüsusda əvvəla Bakı Komandanlığına müraciət edərək, alacaqları vəsiqələrlə Daxiliyyə Nəzarətində iqamətgah üçün təşəbbüsatda bulunmaları elan olunur.

*Bakı Komandanlığı:*
*Mirliva Mürsəl*

## HÖKUMƏT QƏRARDADI

**Azərbaycan Maarif Nəzarətinin əmri**
23 təşrini-əvvəl [oktyabr] 1918

**Nömrə 19**
Dəmiryol ali-ibtidai məktəbinin müəlliməsi Minodor Dmitriyevna Qotsiridze məvacibi verilməklə iki həftəlik məzuniyyətə buraxılır.

**Nömrə 52**
Məhəmməd Hüseynov Gəncə mahalı, Nuxu və Ərəş uyezdlərində müdiriyyət dairəsinə katib təyin edilir.

**Nömrə 55**
Gəncə zəkur [oğlanlar] gimnaziyasının müdirlik vəzifəsini ifa edən D. P. Budarin vəqti-müəyyəndə [müəyyən edilmiş vaxtda] öz xidmətinə gəlmədiyinə görə, vəzifəsindən və həmişəlik üzrə xidmətdən kənar edilir.

**Əmr nömrə 46**
20 təşrini-əvvəl [oktyabr] 1918
Əsgər cəm etməkdən ötrü, bu gün təşrini-əvvəlin 21-ində mənim idarəmdə olan nahiyənin dördüncü hissəsinə azim olacağıma [gedəcəyimə] görə, mənim birinci müavinim MəlikAbbasova "Məcmuyi-qəvanin [Qanunlar toplusu] 715-inci maddə ikinci cild" qanunu mövcibincə [qanununa uyğun olaraq] öz vəzifəsi icrasına başlamağı təklif edirəm. Nəzərə alınmaqdan öt-rü, bu barədə Nahiyə idarəsinə elan olunur.
Bu əmrin surəti Gəncə valisinə təqdim edilməlidir.

*Nahiyə naçalniki İsrafilbəyov*

## SÜLH QARŞISINDA

Dörd il yarım davam edib də mil-yonlarca can, milyardlarla mal aparmış olan hərbin nəhayət qurtarmaq üzrə olduğu anlaşılmaqdadır. Müharib [savaşan] tərəflərdən Amerika ilə Almaniya arasında neçə müddətdən bəridir ki, müharibəni bitirmək məsələsi haqqında notalar mübadilə edilməkdədir. İstanbuldan telsiz teleqrafla verilən son xəbərdə, Almaniyanın Vilsona ikinci bir nota verərək, Müttəfiqlərin nə şərait [şərtlər] üzərinə barışmağa hazır olduqlarını sorduğu bildirilir. Bu surətlə mütarikə [atəşkəs] elanı və sülh müzakiratının [müzakirələrinin] başlanması Vilsonla müttəfiqlərinin cavabına bağlıdır.

Hələ Almaniyanın birinci notasından məlumdur ki, Düvəli-Mərkəziyyə [Mərkəz Dövlətləri] ittifaqı Vilsonun 8 noyabr tarixli nitqində göstərmiş olduğu 14 maddəlik sülh proqramını qəbul edir. Fəqət müharib dövlətlər hər hangi şərait üzərinə sülh əqd edəcək [bağlayacaq] olurlarsa olsunlar, bizim üçün başlıca bir məsələ var:

Ufaq [kiçik] millətlərin müqəddəratı!

Məlum olduğu üzrə, müharibənin ibtidasından [başlanğıcından] bəri, hər iki müharib tərəfin diplomatları yeri gəldikcə "məzlum millətlərin hakimlər əlindən alınması" və "xırda millətlərin kəndi müqəddəratının kəndisinə verilməsi" uğrunda dava etdiklərini meydana atmaqda idilər. Doğrudur, taleyi-hərb [hərb ilahı] hangi tərəfə üz tutduqca, o tərəfin diplomatları, gözləri müvəffəqiyyət şöləsindən qamaşaraq, elan etmiş olduqları o böyük əsasları qismən unudur, yaxud ikinci sıraya buraxırlardı. Lakin, bainhəmə [bununla belə] ufaq millətlərin müqəddəratı məsələsi, ümumiyyətcə təmin edilməmiş olduğu halda, yenə də hərbin böyük bir amili kimi meydanda idi. Həm böyləlikdə davam etməkdədir.

Həman mülahizə ilədir ki, bizcə bu gün sülh məsələsi meydan alaraq, neçə ildən bəri hərbin ağır yükü altında əzilməkdə olan bəşəriyyətə işıqlı ümid verdiyi bir zamanda, ufaq millətlərin müqəddəratı məsələsi yenə bütün mükəmməliyyəti ilə araya atılmalıdır.

Madam ki, hər iki tərəf məzlum millətlərin nicatı və "ufaq millətlərin müqəddəratı" üçün hərb edirdi, şübhəsiz ki, sülh dəxi, səbəbi-hərb [müharibənin səbəbi] olan məsələlərin hüsnihəlli [uğurlu həlli] ilə əqd edilməlidirlər.

Digər tərəfdən bütün bəşəriyyətin zehnini işğal edən böyük bir məsələ var: Cahanşümul hərb ümumi və daimi olmaq üzrə sabit sülh ilə qurtarmalıdır.

Bizcə sülh o vaxt sabit və ümumi olub daima davam edər ki, bu hərbdən sonra ufaq-böyük bütün millətlərin mənafeyi təmin edilsin. Halbuki, ufaq millətlərin müqəddəratının özlərinə tapşırılması məsələsi əsas qəbul edilməzsə, nəinki ümum millətlərin mənafeyi, hətta bir çox "xırda" millətlərin mövcudiyyəti belə təmin edilməmiş olar. Bu isə, mütləqa sülhün teztez pozulmasına bais ola bilər. Deməli, aləmibəşəriyyət bunca qurban verdikdən sonra, yenə də arzusuna nail olmaz.

Bu mülahizə ilə də ufaq millətlərin müqəddəratı məsələsi sülh konfransının iştiğal edəcəyi [məşğul olacağı] əsas məsələlərdən birisini təşkil etməlidir.

Fəqət, "özgə özgənin dərdini lələ bayatısıyla çağırar" demişlər. Sülhün daimi və ümumi olmasında ən artıq mənfəətdar və mənafeyi ilə bərabər, mövcudiyyəti-milliyəsi [milli varlıqları] dəxi daima təhdid altında olan ufaq millətlər, kəndi müqəddəratlarının həllini böyük dövlətlərdən gözləyərək özləri dinməz-söyləməz əyləşəcək olursalar, heç şübhəsiz tarixi bir xəta işləmiş və bəlkə ümid etdikləri səadətlə bərabər, istiqlal və bəlkə mövcudiyyəti-milliyyələrini qeyb etmiş olarlar.

Bundan dolayıdır ki, bizcə hal-hazırda ümum xırda millətlər - gərək yenicə istiqlaliyyət elan etmişlər, gərək irəlidən müstəqil yaşamaqda olanlar və gərəksə hələ istiqlaliyyət almayaraq böyük millətlərin təhti-hakimiyyətində [hakimiyyəti altında] bulunanlar - bu gün həmavaz olaraq [bir ağızdan] səslərini ucaltmalı və milli hüquqlarının təmini, milli müqəddəratlarının kəndilərinə tapşırılmasını bir səslə tələb etməlidirlər.

Ufaq millətlərin həpsi bu məsələdə birləşərək səslərini ucaltsalar, şübhə yoxdur ki, sözlərini eşitdirər və arzularına nail ola bilərlər. Ona görədir ki, şimdi artıq xırda millətlər dəxi, milli müqəddəratlarının öz əllərində olması və hüquq və mövcudiyyətlərinin təmin edilməsini istədiklərini elam etməli [bildirməli] və bu uğurda ciddi təşəbbüsata [təşəbbüslərə] girişməlidirlər.

*Xəlil İbrahim*

## SÜLH ƏTRAFINDA

**Lahey [Haaqa] Konfransı**
Gözlənməkdə olan sülh müzakiratının [müzakirələrinin] Laheydə olacağı məhafili-siyasiyyədə [siyasi dairələrdə] danışılmaqdadır. Məsələ haqqında Flemenk [Hollandiya] Hökuməti ilə müxabirə [danışıq] davam edir. Flemenk Hökuməti bu barədə öz razılığını xəbər vermişdir. Laheydə təcili surətdə Sülh Sarayı nizama salınmaqdadır. Ümumi cəlsələrin [iclasların] burada vaqe olacağı zənn edilir. Sülh konfransı ehtiyacatından [ehtiyaclarından] ötrü Beynəlmiləl Tribunal binası həmçinin hazırlanmaqdadır.

**Almaniyanın Vilsona notası**
Berlin 21 oktyabr. Yekşənbə [bazar] axşamı Almaniya Hökumətinin Amerika Cəmahiri-Müttəfiqə [Amerika Birləşmiş Ştatları] Hökumətinə təslim etdiyi notanın məzmunu: Almaniya Hökuməti işğal edilən yerlərin təxliyəsi təklifini qəbul etdikdə, bu nöqteyi-nəzərdə olmuşdur ki, təxliyə işlərini feilən icraya qoymaq və mütarikə şəraiti [atəşkəs şərtləri] əsgəri mütəxəssislərə vagüzar edilməlidir [tapşırılmalıdır]. Bundan əlavə, cəbhələrdə olan qüvvənin bir-birinə nisbəti əsası sazişə idxal edilməlidir. Almaniya Hökuməti cüziyyatı [detalları] düzəltməkdən ötrü gözəl şərait vücuda gətirilməsini Vilsona təklif etmişdir. Almaniya Hökuməti ümidvardır ki, Vilson alman millətinin şərəfinə və sülhün əsası olan ədalətə müvafiq olmayan tələbatın [tələblərin] heç birini təsvib [təsdiq] etməyəcəkdir. Almaniya Hökuməti alman bərri [quru] və bəhri [dəniz] əsgərlərinə və camaatı [xalqı] üzərinə qanundan kənar və insaniyyətə müqayir [zidd] hərəkətlər haqqında atılan töhmətlər əleyhinə etiraz edir. Təxribat həmişə geri çəkilməyi örtməkdən ötrü lazım olmaqla bərabər, beynəlmiləl hüququnca da bu mənada qullanılır. Alman əsgərləri xüsusi əmlakı mühafizə etməklə bərabər, mümkün qədəri əhali qeydinə qalmaq haqqında ciddi bir əmr almışlardır. Cinayət baş verən yerdə müqəssirlər cəzaya giriftar ediləcəklərdir. Almaniya Hökuməti həmçinin, guya Almaniya bəhri əsgərləri [dəniz əsgərləri, matroslar] gəmiləri qərq etdikdə, nicat verici qayıqları da sərnişinləri ilə bərabər qəsdən tələf etmələri barəsindəki bəyanat müqabilinə də etiraz edir. Almaniya Hökuməti böylə hadisələr baş verərsə, bu işin təhqiq edilməsi üçün bitərəf komissiyalara imkan verilməsini təklif edir. Sülh işlərinin müvəffəqiyyətli bir surətdə getməsinə mümaniət [maneçilik] göstərici şeyləri dəf etməkdən ötrü, bütün sualtı qayıqları komandirləri naminə [adına] sərnişin gəmilərini qərq etməmək əmri verilmişdir. Şəraiti-hazirə [hazırkı şərait] üzrə sualtı qayıqları öz üssülhərəkələrinə [bazalarına] qayıtmadan, bu əmrin hamı sualtı qayıqlarına çatacağına söz vermək olmaz. Vilson sülh əqd edilməsinin əsas şəraiti olmaq üzrə kontrolsuzluqdan nəşət edən [qaynaqlanan] başsızlığa istinad edici hər bir hökumətin bərtərəf edilməsini [aradan qaldırılmasını] göstərir ki, bu da öz-özlüyündə beynəlmiləl sülhü xələldar edə bilər [sülhə ziyan vura bilər]. Almaniya Hökuməti buna cavab verir ki: "Şimdiyə qədər Almaniya İmperatorluğunda hökumət təşkilatına camaat nümayəndəliyi heç bir nüfuz yetirə bilməmişdir. Müharibə və sülh məsələlərinin həllində məşrutə [konstitusiya] qanunu camaat nümayəndəliyinin iştirakını lazım görməmişdir. Bu dairədə böyük təbəddülat [dəyişikliklər] vücuda gəlmişdir. Təzə hökumət, camaat nümayəndəliyinin arzusuna müvafiq, ümumi, müsavi [bərabər], müstəqim [birbaşa] və gizli seçki qanunu əsası ilə vücuda gətirilmişdir. Reyxstaqda olan böyük firqə başçıları hökumət heyətinə daxil olmuşlardır.

Həmçinin, gələcəkdə Reyxstaq[da] əksəriyyətin etimadına məzhər olmayan [etimadını qazanmayan] heç bir hökumət vücuda gətiriləmməz və öz fəaliyyətini davam ettirəmməz. İmperiya Kançlerinin [Kanslerinin] camaat nümayəndəliyi qarşısında məsuliyyəti qanunlar ilə müəyyən və təmin edilir. Təzə Almaniya Hökumətinin birinci iqdamatı [təşəbbüsü] müharibə və sülh məsələlərinin həllində camaat nümayəndəliyinin rizası lazım olduğu kimi, məşrutə [konstitusiya] qanunlarının əvəz edilməsi təklifindən ibarət olmuşdur. Təzə üsuli-idarə [idarə tərzi] davamının təmini bir tək qanun təminatı ilə olmayıb, bəlkə bu tərz idarə qanunlarının tərəfdarı və bu qanunların ciddi surətdə genişlənməsini tələb edən alman milləti əksəriyyətinin qüvvətli arzusu ilə ola bilər. Vilson və müttəfiqlərinin kimlə müamilədə bulunmaları [kimlə danışıq, haqq-hesab aparmaları] haqqındakı istizahına [izahat tələbinə] bu surətlə açıq cavab verilmiş olar ki, sülh və mütarikə təklifi əski məsuliyyətsiz və keyfəmayəşaya [öz keflərinə] xidmət edən hökumətdən deyil, məsuliyyətli və bütün alman millətinin əksəriyyətinə istinad edən təzə hökumət tərəfindən sadir olmuşdur [meydana qoyulmuşdur].

## AZƏRBAYCANDA

Gəncədə Hərbiyyə məktəbini bitirmiş birinci dəstə gənc zabitlərin oktyabrın 26-sında buraxılacaqları gözlənilməkdədir. Zabitlərin buraxılacağı gün təntənəli bir surətdə olacaqdır. Bu təntənəyə bütün hökumət ərkanı və Baş Hərbiyyə Komandanlığı dəvət edilmişdir.

**Qaçqınların İrəvandan bəri gəlməsi**
Nafiə və Səhhiyyə Nəzarətinin [Səhiyyə və Sosial Təminat Nazirliyinin] Gəncədən aldığı teleqramdan anlaşılır ki, İrəvan qaçqınlarının axıntısı son dərəcə kəsbi-şiddət etmişdir [şiddətlənmişdir]. Bunlara ciddi və təcili müavinət [kömək] lazımdır. Davacata [dava-dərmana] böyük ehtiyac müşahidə edilməkdədir. Qaçqınlar dəmiryol ilə Kürdəmirə gəlməkdədirlər.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Azərbaycan Hökumətinin 24 təşrini-əvvəldə [oktyabrda] vaqe olan iclasında Zurnabadda taun ilə mübarizə edici istasyonu hazırlamaqdan ötrü üç yüz min manat təxsis edilməsi [ayrılması] qərara alınmışdır.

---

Azərbaycan Cümhuriyyətinin əsgərlər ehtiyacatından [əsgərlərin ehtiyaclarından] ötrü mənzillər kirayə və təmir edilməsi üçün Daxiliyyə Nəzarəti [Daxili İşlər Nazirliyi] ixtiyarına yüz min manat para buraxılmışdır.

---

Azərbaycan Cümhuri Hökuməti 1919-cu il üçün hökumət siyahısı tərtib edilməsindən ötrü bir komissiya təşkil edilib və həmin komissiyaya bir sədr təyin etməyi Maliyyə Vəzarətinə [Nazirliyinə] təklif etmişdir.

## ERMƏNİ-GÜRCÜ İXTİLAFI

Tiflisdən xəbər verilir ki, oktyabrın 19-unda gürcü hökumətinə bildirilmişdir ki, nizami erməni əsgərləri Kober mövqifi [stansiyası] ilə sərhəd körpüsü arasındakı məsafəni və Borçalı uyezdi Sanain ətrafını tutmuş və Gürcüstandan çıxmaları haqqında alman əsgərlərinin tələbinə baxmayaraq, yeni yerlər tutmaqda davam edirlər. Gürcü Xariciyyə naziri, erməni nümayəndəsi Camalyana bir nota verərək, Gürcüstan Hökuməti həmişə Ermənistan ilə sərhəd məsələsini sülh təriqi [yolu] ilə həll etməyə hazır olduğunu bəyanla, böylə bir etilaf [razılıq] əmələ gəlmədən, erməni qoşunlarının Tiflis quberniyasına soxulmalarını erməni hökuməti tərəfindən Gürcüstan əleyhinə bir ədavət kimi tələqqi [qəbul] edəcəyini bildirmişdir. Erməni nümayəndəsi həman gün Xariciyyə naziri müaviniylə görüşərək bəyan etmişdir ki, Borçalı uyezdindəki davalı yerləri ermənilər Osmanlı Hökumətinin rizası ilə işğal edirlər. Eyni zamanda hökumət qərardadına görə, Hərbiyyə naziri Gürcüstan hüdudunun müdafiəsi üçün tədbirlər görmüşdür: Sanainə göndərilmiş zirehli tren [qatar] rəisi oktyabrın 20-sində xəbər vermişdir ki, Kober ilə Kalageran mövqifləri arasındakı körpünü ermənilər tərəfindən işğal edilmiş görərək, Gürcüstan ərazisinin təxliyəsini tələb edici bir ultimatum vermiş və ayın 21-ində əməl edilmişdir. Camalyan notanı öz hökumətinə göndərmiş və gürcü Xariciyyə nazirinə bəyan etmiş ki, hər iki cümhuriyyət hökumətlərinin dostanə əlaqəni möhkəmləşdirmək uğrundakı məsaisi [səyləri] nəticəsində, məsələnin hər iki millət üçün əlverişli bir surətdə sülh ilə həll ediləcəyinə ümidvar olur. Oktyabrın 23-ündə erməni Baş Vəziri [Baş Naziri] Kaçaznuni bir teleqraf çəkərək gürcü əsgərləri komandanlığı Şaqali mövqifinin təxliyəsi haqqında ultimatum vermiş və erməni əsgərlərinə mövqifi boşaltmamaları barəsində hökm verilmiş olduğunu bildirərək, təvəqqe etmişdir ki, gürcü əsgərləri həman durduqları xətdə saxlansınlar və sərhəd məsələsi sülh ilə həll edilsin. Bunun cavabında Hərbiyyə naziri, Kaçaznuniyə bəyan etmiş ki, gürcü hökuməti özü təklif etdiyi kimi məsələnin sülh ilə həllinə razıdır və gürcü qoşununa əmr olunmuşdur ki, durduğu xətdə dayanaraq dava hərəkatı başlamasın. Fəqət, həman gün gürcü hökumətinə xəbər verilmişdir ki, erməni qoşunları Korincin təxliyəsini tələb etmiş və sonra Korinc-Tsater xəttini tutaraq, alman qaraqolxanasını çəkilməyə məcbur etmişlərdir. Vəz [vəziyyət] və əhvalı müzakirə edərək, gürcü hökuməti Xariciyyə nazirinə tapşırmışdır erməni vəkilinə xəbər versin ki, əgər erməni qoşunları türklər getmədən əvvəl tutduğumuz xətti, Korinc, Tsater və Kamenka çayı ilə bərabər təxliyə etməsələr, yaxud Tiflis quberniyasında yeni ərazi tutsalar, gürcü hökuməti bu hərəkəti erməni hökuməti tərəfindən başlanmış bir müharibə əməliyyatı kimi tələqqi [qəbul] edəcək və hər iki cümhuriyyət üçün hasil olan fəna [mənfi] nəticənin məsuliyyətini onun öhdəsinə atacaqdır. Nota Camalyana verilmişdir. Hökumət ixtilafın sülh ilə yatırılacağına ümidini kəsmir.

## RUŞƏN ƏŞRƏF BƏYİN ŞƏRƏFİNƏ ZİYAFƏT

Keçən günkü axşam, şəhərimizin üdəba [ədibləri] və ziyalıları tərəfindən Bakıda müsafirətən [qonaq olaraq] bulunan, türk ədibi və şairi-şəhiri [məşhur şairi] Ruşən Əşrəf bəy həzrətlərinin şərəfinə Yay klubunun böyük zalında gözəl bir ziyafət verildi. Daha bir-iki sənə əvvəl xəyalımıza belə gələ bilməyən və yuxumuza girəmməyən "əcaib" [qəribəliklər] qəbilindən idi ki, əksəriyyən müsəlmanlara qarşı qapısı bağlı olub da məhz qeyri-müsəlmanların təfərrüc [əyləncə] və istirahət yeri olan bu zalda qəhrəman Türk Ordusunun bir tərəfdə musiqi orkestri guruldayıb, digər tərəfdə də yenə o nəcib millətin incə saz taqımı [heyəti] tərənnümsaz olmaqla [tərənnüm etməklə], yerli müsəlmanların qəlbini zövq və şövq ilə doldururdu. Bu tərəfdən dəxi natiqlər möhtərəm qonağımızın şərəfinə badənuş olaraq [qədəh qaldıraraq], gözəl-gözəl nitqlər söyləyirdilər.

Cavan şairimiz Cavad əfəndi öz nitqində pək doğru olaraq, bizi düşmən əlindən xilas edib, istiqlaliyyətimizi özümüzə qaytaran qəhrəman Türk Ordusunun əqəbincə [ardınca] türkün ürfan [bilik, maarif] ordusu gələcəyini və möhtərəm Ruşən Əşrəf əfəndinin o ordunun müqəddimətülceyşi [ordunun önündə gedən dəstə, kəşfiyyat qrupu] mənzələsində [yerində] olduğunu qeyd etdi.

Unudulmuş Azərbaycan ədəbiyyatını yenidən yada salmaq və bu ədəbiyyatın varlığını isbata yetirmək haqqında illərcə çalışmaqda olan möhtərəm Firidun bəy Köçərli cənabları Azərbaycan şivəsi ilə gözəl bir nitq söyləyib, bizim də ədib və şairlərimizin hal və zaman iqtizası [tələbi] ilə daim türk üdəbasını təqib etdiklərini bəyan qıldılar.

Azərbaycan dramnəvislərindən [dramaturqlarından] möhtərəm Nəcəf bəy Vəzirov cənabları haqlı olaraq söylədilər ki, biz Azərbaycan türkləri dilcə "piyada"yız. Başımızdakı fikirləri və qəlbimizdəki hissiyatı bəyan etməyə dilimizdəki sözlər kifayət etməyir. Çünki, əsrlərdən bəri bizi öz dilimizi unutmağa məcbur edirdilər. Maarif naziri müavini Həmid bəy Şahtaxtinski cənablarının nitqi dəxi bu yolda olub, dil tərəfdən məzur tutulacağımızın [üzrlü hesab ediləcəyimizin] səbəbini bəyan etdilər. Allaha minlərcə şükür olsun ki, bu gün öz dilimizi azad və sərbəst bir surətdə yenidən öyrənməyə artıq mümaniət [maneçilik] yoxdur.

Əziz qonağımız möhtərəm Ruşən Əşrəf bəy həzrətləri natiqlərimizə cavab olaraq, səlis və bəliğ [bəlağətli] bir nitqlə məclis əhlini feyzyab etdilər. Ədib əfəndi bizim Bakıda, özünü ikinci bir İstanbulda zənn edirmiş. Təvazö edərək söyləyirdi ki, mən bu şərəfə və bu ehtirama layiq deyiləm, özüm də buraya Azərbaycan qardaşlarımı ziyarət qəsdi ilə gəlib, dərvişanə bir surətdə dönüb dolaşmaq istərdim. Amma siz Azərbaycan türkləri bizim üçün o dərəcədə susamışsınız ki, məni möhtərəm bir türk hesab edib də haqqımda bu qədər canfəşanlıq göstəriyorsunuz. Ədib əfəndi vədə verdi ki, İstanbula övdət edib də [qayıdıb] Azərbaycan türkləri haqqında var qüvvəsilə çalışacaqdır; ədəbiyyatımızdan, əxlaq və adatımızdan [adətlərimizdən], arzu və amalımızdan bəhslə biz türkləri İstanbula tanıtdıracaqdır və İstanbul ilə Azərbaycan arasında hər bir cəhətcə mətin bir rabitə təşkilinə bütün səy və qüvvətini sərf edəcəkdirlər. Əziz qonağımızın gözəl nitqi sürəkli alqışlarla qarşılandı.

Məclis əhli qəhrəman Türk Ordusu zabitani möhtərəməsindən [möhtərəm zabitlərindən] Asim bəy əfəndi cənablarının da əsgərcəsinə söylədiyi bəliğ nitqini dinləyib, feyzyab oldular; müzəffər Türk Ordusu şərəfinə dəxi bir çox nitqlər söyləyib, "Yaşasın Türk Ordusu!" deyə zabitani-hazirun əfəndiləri [orada olan zabitləri] alqışladılar. Bə'dəhu [sonra] Azərbaycan mücahidlərindən məşhur İsa bəy Aşurbəyli cənablarının son sözləri ilə rəsmi-ziyafət [ziyafət mərasimi] tamam olub, məclis əhli əziz qonağımızla xudahafizləşib, şad və bəxtiyar bir surətdə evlərinə övdət etdilər [qayıtdılar].

*Ayn*

*Çocuq şeirləri:*

### DƏYİRMƏN

*Sevgili "Cahid"ə*

Bax şu gözəl dəyirmən
Dönüyor hər gün həmən.
O, köydən az ötədə
Tarlada bir köşədə
Tənha, tək bir qulübə
Yüksək, sivri bir izbə.
Kənarına damının
Ta yanına camının
Dörd taxta qol gərilmiş,
Həpsinə bez sərilmiş.
Yel əsincə o bezlər
Şişər, qanada bənzər.
O qollar artıq dönər,
Dönər; bunu görənlər
Sanarlar bir qoca əl
Onlara der: Mənə gəl.
Ətrafında çocuqlar,
Civarında quşcuqlar
Qoşuşarlar, düşərlər,
Ötüşərlər, üşərlər.
Dəyirmənçi bəmbəyaz
Çıxar baxar gah bir az,
Sonra yenə qapanar,
Çünki un çox toplanar.
Arabalar ötədən
Daha çıxıb gəlmədən
Çuvalları doldurar,
Yeni buğda buldurar.
Rüzgar əsər muttasıl,
Qanad durmaz, bax nasıl
Yorulmadan gidiyor,
"Çalışmaq nə xoş" diyor.
Altun günəş batarkən,
Quş yuvada yatarkən
Üfqə salam yollayar,
İşləyib yel qollayar.
Fəqət axşam olunca,
Qaranlıqlar dolunca
Rüzgar bir an duruyor,
Sanki həyat quruyor.
Şişkin bezlər enərək
Çırpınmalar dinərək
Dinləniyor dəyirmən,
"Tənbel, diyor, sən əylən".
Lakin gümüş ay gecə
İşığını sərpdikcə
Qanad yenə canlanar,
Çalışmaqla şanlanar.
Çoban qaval çalarkən,
Ay buluda dalarkən,
Qoyun-quzu mələrkən
Düşünməz heç gec, erkən
Dönər, dönər o qollar,
Muttasıl un ufalar.
Faidəli dəyirmən
Gecə-gündüz didinmən
Bizə verir səadət,
Əkmək böyük bir nemət.
Öyütməzsən əgər un
Tütməz olar bir furun.
Artıq həyat tükənər,
Qıtlıq, ölüm bəklənər.

*Ruşən Əşrəf*
*İstanbul: 1916*

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 28 oktyabr (bazar ertəsi günü) tarixli XXIV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## SAĞALMAZ YARALARIMIZ

"Kaspi" qazetəsinin 89-cu sayında "Mart vüquatına [hadisələrinə] aid" sərlövhəsi ilə dərc edilmiş şayani-diqqət [diqqətəlayiq] bir məqaləni biltərcümə [tərcümə edərək] qarilərimizə [oxuyucularımıza] təqdim ediriz:

Tiflis "Vozrajdeniye" qazetəsi may sayılarının birində mart axırlarında Bakı vüquati-müəssifəsini [kədərli hadisələrini] mövsuq vərəqələrlə [mötəbər sənədlərlə] təşrih edən [açıqlayan] "Ağa Xas" imzası ilə çap edilmiş bu məqalə ancaq bu halda burada alındığından, bu maraqlı əhvalatdan əhali yeni hali [xəbərdar] ola bilir:

Miralay Maqalov qitəsi [hərbi hissəsi] ilə işğal olunmuş Hacıqabul mövqifinə [stansiyasına] nisan [aprel] ayı vəsətində [ortasında] iki vaqondan ibarət bir qatar varid oldu. Vaqonlarda poçt-teleqraf məmuru Pavel Aleksandroviç, iki teleqraf məmuru, on texnik və qitələr [hərbi hissələr] bulunurdu. Şuproviç yədində [əlində] onun Bakı və Tiflis şəhərləri arasında olan teleqraf ve telefon xətlərini təmirat üzrə Şaumyan tərəfindən məmur olunduğunu [vəzifələndirildiyini] haiz [göstərən] bir vəsiqə bulunmuş və təhərriyat [axtarış] əsnasında Şuproviç üzərində Bakı bolşevik komissarı və eyni zamanda Gəncə Erməni Milli Komitə idarəsi müdiri Tarayev tərəfindən məzkur [adı çəkilən] komitəyə olan bir məktub bulundu. Bu məktubun məzmunu ermənilərin nə məramda olduqlarını qayət aşkar şərh etdiyinə məbni [görə], bunun tibqi olaraq [eynən] çap edilməsi lazım görülür. Məktub da budur:

"Əziz arxadaşlarım, mənim Gəncədən əzimətim [gedişim] pişəzvaxt [qabaqcadan] müqərrər edilmiş [qərarlaşdırılmış] olsa da, o qədər tez oldu ki, sizinlə görüşüb Bakıda olacaq hərəkətim haqqında sizdən bir təlimat ala bilmədim. Mahəza [bununla belə], komitədəki fəaliyyətim və vəzifəmdən bizə ən zəruri şeyləri bildiyimdən, lazimələri [lazım olan şeyləri] bey etməyə [almağa] başladım. Ən ibtida da [əvvəl də] koks aramağa, ciddən [ciddi] hərəkətə iqdam etdim [girişdim] və ənvai-müsibətlə [bir çox çətinliklə] 60 pud buldum. Bu koks Aram Verdiyan üçün olmayıb, sənətxanalara [sənaye müəssisələrinə] təxsis edilmişdir [ayrılmışdır]. Birinci dəfə olaraq iki meşok göndərirəm. Bunun sizə vüsul ola [çata] biləcəyini yəqin edə bilmədiyimdən, qüsuru [qalanı] burada məhfuzdur [mühafizə edilir]. Aram Verdiyan üçün çox məşəqqətlə üç ədəd baqır [mis] əritməyə məxsus tiqel buldum. Bunların iki ədədi xas [xalis] ingilis işidir [malıdır].

Daha da iqtiza edərsə [lazım gələrsə], rus tiqeli bulmaq mümkündür. Fiatı [qiyməti] 100 markaya. Fəqət bunlar və başqa lazimə əşyalar bey edilmək üçün üç min rublə daha lazımdır. Gətirdiyim üç min rublənin nəyə sərf edildiyini buradakı vəsiqədən anlarsınız. Arxadaşım Gülxəndanyanla həmrəy olaraq min iki yüz rubləyə bir teleqraf aparatı ve 45 pud dəmir bey etdim [aldım]. Fəqət bunların cüməsi ilə kifayət etmədim.

Stepan Şaumyanın sizə və mənə olan rəğbətini gördükdə, sizlə onun irtibatına [rabitəsinə, əlaqəsinə] məxsus və bundan bir xətt də Milli Müşavirə Məclisinə ayrılmaq üzrə bir teleqraf xətti çəkilməsinə Stepanı mayil [razı] etdim və bu xətt yapılmaq üçün Pavel Aleksandroviç azim oldu [yola düşdü]. Məzkur [adı çəkilən] xəttə təxsis edilmək [ayrılmaq] üzrə məccanən [pulsuz] iki ədəd teleqraf və iki ədəd telefon aparatı, lazımi miqdarda batareyalar, on verst əla dəmir tel ki, bunların cüməsi on min rubləyə mal ola [başa gələ] bilər və məzkur xətt təmiratına sərf ediləcək qədər məbləğ Şaumyan tərəfindən mənim kəfalətimlə [zaminliyimlə] əta edilmişdir [bağışlanmışdır]. Tədad olunan [sadalanan] əşyanı Pavel Aleksandroviç kəndisiylə götürür. Bu gözəl hədiyyə bir ay müddətində mənim məcburi sükutuma qarşılıq ola biləcəyini ümid edirəm.

Bundan başqa bura cəbhəsində artıq lazım olmadığı halda, iyirmi ədəd telefon aparatı, altmış verst telefon və teleqrafa məxsus yer altından çəkilən dəmir tel (kabel) bizim mahal üçün verilməsini Stepan Şaumyan vəd etmişdir. Pavel Aleksandroviç işinə iki-üç verst kabel kafidir. Qalan altı-yeddi verst kabeli siz Zurnabaddan o yana olan yavuq köyə qədər xətti uzatmağa qullana bilərsiz. Cəmi [bütün] Bakı vüquatı [hadisələri] haqqında Pavel Aleksandroviç sizə müfəssələn məlumat verər. Ancaq Atabekyanın qətl edilməsini sizə xəbər verirəm.

Türk dilində intibahnamə [təbliğat vərəqəsi] göndərirəm. Bunların müsəlman köylərində paylanmasını burada çox arzu edirlər. Cümlənizin əllərini sıxıram, xülusi-qəlblə [səmimi-qəlblə] arxadaşlıq salamını təbliğ edən S. Tarayan."

"Dəmirlə koks başqalarını şüphələndiməyə səbəb ola biləcəyinə məbni [görə], yaxşı olar ki, nemsələrdən rica edəsiniz məzkur [adı çəkilən] əşyanı onlar götürsünlər. Guya Kolonya [Köln] üçün imiş". "Yenə də o".

Bu məktubdan başqa Şuproviç üzərində Gəncə erməniləri isminə erməni dilində yenə də məktublar bulunmuş. Həman məktublarda vahiməli Bakı faciəsini belə yazırlar:

"Üç gün müddətində şəhərin tamam hissələrində onları (müsəlmanları) tələf etməyə davam edildi və müsəlman evləri yandırıldı, bir kimsə salamat azad edilmədi. Cümləsini birbəbir öldürürlərdi. Bu adi bir qırğın idi. Soqaqlar meyitlərlə dolmuş idi. Nikolayevsk soqağından meydana qədər bazar tamam yandırıldı. Gəncənin əvəzi çıxdı. Uşaq, böyük, arvad və kişi heç kəsə fərq qoyulmayıb, hamısını qətl edirlərdi. Daşnaksaqanların bitərəf durmalarına inanma, bunlar yolları tutdular ki, köylərdən imdada kimsə gələ bilməsin. Həmidiyyə, İsmailiyyə binaları və Dikaya Divizya qışlası yaxıldı. Bu halda Müsavat bürosu yanır. Müsəlman hissəsində salamat bir ev qalmadı. Cəmi [bütün] müsəlman ev, dükan və mağazaları talan edilib, yaxılmışdır.

Çocuqlar nə vaxt gələcəklər, göndər, bunları görüb, şad olsunlar. Bir müsəlman həyətinə daxil olub, burada otuzdan qırxa qədər çocuq, arvad və erkək cənazələrini quru yerdə buraxılmış gördüm. Müsəlmanların tələfatı, yalnız qətl edilənlər beş-altı minə qədərdir. Rüzgar [külək] mane olmasaydı təyyarələr göyə qalxıb, qüvvələr birikdikdə [birləşdikdə] bunların təkmilini [hamısını] dənizə tökməklə, bir dəfə olaraq bunlardan xilas olmaq mümkün idi. Lənkəran, Petrovsk işğal edilmiş, Şamaxıya və Hacıqabula əsgər göndərilmişdir. İyirmi-iyirmi beş günə qədər Gəncədə olmağımıza ümid edirəm.

Gəncə bir azca da davam etsin [dözsün], Amazasp böyük cəsarət göstərib onları gözəl əzdi."

Şuproviç və onun məiyyətində [yanında] bulunanları hamil [aparan] qatarda Tarayevin məktubunda yazılan əşyanın cüməsi mövcud idi. Bunlardan başqa, Şuproviçdə Bakı ilə Gəncə aralarındakı mövqiflərin [stansiyaların] isimləri, şifrəsi və patlan-qıclar bulundu. Baqır [mis] ərildilməyə məxsus tiqel və başqa şeylər Tarayev tərəfindən Gəncə Erməni Milli Komitəsi rəisi və hal-hazırda Quberniya komissarı müavini Malxazova təslim edilmək üçün verildiyini Şuproviç və onun adamları iqrar [təsdiq] etdilər. Bakı faciəsində firqə mənsubiyyəti mülahizə edilmədiyi [nəzərə alınmadığı] məzkur şəxslərin təqriratından [ifadələrindən] aşkar olurdu. Belə ki, intelligentlərlə bərabər, bolşevik fəhlə müsəlmanlarını da öldürürmüşlər. Buna da səbəb, məzlumların müsəlman olmaları imiş.

Tarayev məktubunun əhəmiyyətli yeri Malxazovun müsəlman köylərində nəşr edilmək üzərə bolşevik ədəbiyyatı göndərilməsi bəyan olunan yeridir ki, bu da Gəncə quberniyasında lazimə qədər aşkar və aşnaların xatirəsi üçün, Zülqədərov və başqa mülkədarların qətl edilməsinə dair olan hərəkətlərdən bir nümunədir.

Şuproviç və onun arxadaşlarında bulunan övraq [sənədlər] Revolusyon tribunalına [İnqilabi tribunala] verilmişdir. Bunların məzmunundan Bakı faciəsində ermənilərin qayələri nə olduğu aşikardır. Ermənilərin Bakıda bolşevik namı [adı] ilə yapdıqları təşəbbüsat [işlər, hərəkətlər], bolşeviklik üçün olmayıb, bolşevikliyə ancaq burası bənzəyirdi ki, bisilah [silahsız] və məzlum əhalini qorxutmaq üçün heç bir iqdamatdan [addımdan] çəkinməyirlərmiş. Bakıda bigünah əhalini dənizə töküb, onları suda boğmağa da iqdam edilirmiş.

İrəvan quberniyasında mitralyoz və top vasitəsilə 199 köy təxrib edilib [dağıdılıb], müsəlman yurduna erməni qaçqınları dolmuşdur.

Şamaxı mahalına dörd min nəfərdən ibarət bir qitə [hərbi birlik] göndərilib, əhali tədib edilir [cəzalandırılır] və dörd min əsgərin yüzdə səksəni erməni olur. Bunların cümləsindən [hamısından] Bakı faciəsi nə məram üzrə oynandığı və bu faciə əsnasında ermənilər nə vəzifədə bulunduqları məncə aşikar olsa gərəkdir.

*Məhəmməd*

## BİR ZIYA [İTKİ]

Bu günlərdə kimsə xəbərini bilmədən, otuz beş ildən bəri Bakı türk və müsəlman səhnəsində bitəmənna [təmənnasız], könüllü surətdə çalışaraq, bu uğurda hər şeyindən keçən aktyorlarımızdan Kərbəlayi Cahangir Zeynalov vəfat etmişdir. Kərbəlayi Cahangiri Bakıda tanımayan bir kəs yoxdur. 18 Mart hadiseyi-müəssifəsindən [kədərli hadisəsindən] sonra, başqa türk və müsəlmanlar kimi İrana fərar etmiş [qaçmış], 6 ay bir müddət orada yaşamışdır. Son günlərdə İrandan öz yurduna övdət etmiş [qayıtmış], xəstələnərək vəfat eyləmişdir.

Ölüm haqdır. Kimsə bunun əlindən təxlisi-giriban [yaxasını xilas] edəmməyəcəkdir. Kərbəlayi Cahangirin bu surətlə vəfat edərək, çalışdığı maarif və xeyriyyə cəmiyyətləri üzvlərinin və aktyor arxadaşlarının və mətbuat xadimlərinin xəbəri olmadan dəfn edilməsi təəssüf ediləcək, bəlkə əfv edilməyəcək bir haldır. Zamanəmiz o qədər keşməkeşli bir hal almışdır ki, kimsə öz yaxın tanışlarından belə olsun vaxtlı-vaxtında xəbər tutammır. Kərbəlayi Cahangirin vəfatı və dəfni də bu qəbil olmuşdur. Lakin onun qövməqrəbası vəfatı xəbərini qəzetə elanları ilə xəbər verə bilərdilər ki, bu bizim şəhərimizin adətidir. Nasılsa [necə olmuşsa] burasına etina edilməmişdir.

Kərbəlayi Cahangir otuz beş sənə bir zamandır ki, səhnə və teatro işlərində çalışır və öhdəsinə götürdüyü müzhik [gülməli] rolları layiqincə ifa edirdi.

"Hacı Qara" və "Hacı Qəmbər" komediyalarının qəhrəmanları dərxatir edilərkən [yada salınarkən], ixtiyarsız olaraq insanın nəzərində Kərbəlayi Cahangir təcəlli edir [canlanır]. Son on ildə faciələrdə də iştirak edib, birinci dərəcə baş rollar oynayırdı. Hər nə qədər yaşı altmış beşi təcavüz etmişdisə [keçmişdisə] də, ruhu cavan idi. Vaxtilə Bakıda təşkil edilmiş "Nicat", "Səfa" və "NəşriMaarif" kimi cəmiyyətlərdə idarə üzvü sifəti ilə çalışmışdır. Kərbəlayi Cahangir yanılmayırsam, Azərbaycan səhnəsində ən ixtiyar [yaşlı] aktyor idi. Tanrının rəhmətində olsun.

## BAKI XƏBƏRLƏRİ

**Neftçilər Şurasında**

Tağı bəy Səfərəliyevin Ticarət və Sənaət [Sənaye] nazirinin müavinliyinə təyinindən naşi [təyini səbəbindən], Neftçilər Şurasının üzvlüyünə mühəndis Rüstəm bəy Sultanov intixab edilmişdir [seçilmişdir].

Ümuri-Xeyriyyə və Nafiə [Xeyriyyə və Sosial Təminat] nazirinin Göyçay və Şamaxı əhalisinə şəhər anbarlarından dərman buraxmaq barəsindəki təklifinə şəhər bələdiyyə idarəsi cavab vermişdir ki, axır vaxtlarda şəhər anbarlarından dərmanların azalmağından dolayı, yaxın zamanda xəstəxanalarda dərman belə tapılmayacağı hiss edilir.

**Məhkəmə müəssisələri təşkili**

Bu günlərdə müxbirimiz Bakı nahiyə məhkəməsi sədri Perçixin ilə müsahibədə bulunmuşdur. Perçixin cənabları məsələni böylə təsvir edir:

Məhkəmə müəssisələrinin təşkili şəhərdə bitmişdir. Hal-hazırda bir çox istintaq komissionları və başqa müəssisələrdən məlumat və ərzihal [ərizə] gəlməkdədir. Sabiq qulluqçular öz yerlərini tutmuşlar. Qəzalarda əhval vəxamət kəsb etmişdi [ağır vəziyyət yaranmışdı]. Sabiq məmurları bulmaq çətindir. Yenilər isə qəzalara getməyə razı olmurlar. Bu işi bir qədər də müsəlman məmurları yoxluğu çətinləşdirir. Müsəlman əhalisi olan yerlərdə müsəlman məmurları bulunması ən lazımlı məsələdir. Məhkəmə işləri məhəlli [yerli] lisanda olmalıdır. Kargüzarlıq isə hələlik rus lisanında olacaqdır.

Ümumiyyətlə, məhkəmə işləri təşkilatı yaxın zamanda yaxşılaşacaqdır. Miri [mülki] şöbənin əvvəlinci iclası olmuşdur, cinayət şöbəsi isə hələlik işə başlamamışdır. Məhkəmənin böyük salonunun Türk Hərbi məhkəməsi tərəfindən tutulması, işi bir qədər də geriyə atır.

Perçixin cənabları müsahibəsinin nəticəsində [sonunda] demişlər ki, məhkəmə işlərini düzgün bir hala salacağına itminan [arxayınlıq, əminlik] hasil etmişdir.

**Edam**

Dün Bakıda bir neçə adam asılmışdır. Bunlar özbaşına axtarış yapmaq, oğurluq və sairə kimi cinayətdə ittiham edilirlərmiş.

**Rus Milli Komitəsində**

Zaqafqaziya Rus Milli Komitəsi Tiflisdəki səfirimiz vasitəsilə Azərbaycan Hökumətinə müraciətlə, Milli Komitənin Barsov nam [adlı] nümayəndəsinin Azərbaycana gəlməsinə müsaidə [icazə] istəmişdir. Barsov Azərbaycandakı ümuri-xeyriyyə [xeyriyyə işləri] ilə tanış olmaq, xüsusən mal mübadiləsi üçün müzakiratda [müzakirələrdə] bulunmaq üçün gəlir. Bakıdakı Komitə şöbəsi Ticarət və Sənaət [Sənaye] nazirindən Barsovun gəlməsinə müzahirətdə bulunmağı [köməklik göstərməyi] rica etmişdir.

**Bakı üçün yanacaq**

Bakı Bələdiyyəsinin Ərzaq şöbəsi qərar qoymuş ki, Bakı əhalisi və hökumət idarələri üçün məhruqat [yanacaq] tədarük etsin. Aleksandr Kosteniç Ərzaq şöbəsi tərəfindən vəkalətən Dərbənd mövqifinədək [stansiyasınadək] gedəcəkdir ki, mövqiflərdə hazır olan odunları Bakıya gətirsin.

## XARİCİ XƏBƏRLƏR

**Nikolay Nikolayeviçin edam edilməsi**

Jeneva [Cenevrə] İsveçrə mətbuatına Tsarski Selodan verilən xəbərlərə görə, sabiq Rus ordusu Baş komandanı Nikolay Nikolayeviç təşrini-əvvəlin [oktyabrın] 16-ncı gecəsi edam edilmişdir.

Berlin Almanya Ərkani-Hərbinin [Baş Qərargahının] nümayəndəsi siyasi müşavirdə bəyan etmişdir ki, Almaniya müharibəni bitirməyə məcburdur, halbuki işbu müharibəni məğlub olmadan davam etdirə də bilər. Bu məlumat Vilsonun cəvabi notasına çox təsir etmişdir.

Kiyev Sofiya Meydançasında ukraynalılar nümayiş yapmışlar. Rusiya hüdudundan Almaniya qoşunları 10 çağırım içəri çəkilirlər. Amerika Hökuməti Ukrayna istizahına [izahat tələbinə] cavab olaraq demişdir ki, Sülh konqresində bütün Rusiya nümayəndələrini görmək istəyirlər.

Moskva Fransa mətbuatı məmləkətdə aclıq başlanmasını qeyd edirlər.

Kiyev Şura Hökuməti Voronejə köçür. Ruhani və burjuaziyaya istehkamat işlərində işləmək qəsdilə səfərbərlik elan edilmişdir.

**Kazanda**

Bolşeviklər vürudundan [gəlişindən] sonra fəhlələrin yeni üsyanı olmuşdur. Bunlar səfərbərlik, quldurluq, həczlər [müsadirələr] əleyhinə etiraz edirmişlər. Üsyan yatırılmışdır. 61 fəhlə, 380 burjua, ruhani və zabit güllləbaran edilmişdir. 4000-dən ziyadə əhali həbsə alınaraq 500 min manat təzminati-hərbiyyə [hərbi təzminat] tələb edilmişdir. İşbu məbləği 4 günə kimi verməlidirlər. Verilməzsə rəhn [girov] surətilə həbsə alınmışlar qətl ediləcəklər.

**İspanyol nəzləsi [ispan qripi] ilə mübarizə**

Avstriya ordusu təbiblərindən Karnaseviç ispanyol nəzləsi əleyhinə dərman tapmışdır. Bu əlac yaxşı nəticələr verir. Ən yaxın zamanda məcburən bütün Avstriya ordusunda əsgərlərə peyvənd edəcəklər.

**Leninə suiqəsd**

Leypsiq 18 təşrini-əvvəl [oktyabr]. "L. V. Q." qəzetəsinin Kiyev müxbiri teleqrafən [teleqraf vasitəsilə] xəbər verir ki, Kurskda Leninə yenidən suiqəsd edilmişdir. Lenini çiynindən tapanca qurşunu ilə yaralayan cani dərdəst edilmişdir [tutulmuşdur].

**Rusiya Cümhuriyyəti**

"Q. F." Londradan xəbər verir: "İngiltərə hökumət məhafilində [dairələrində] bir böylə şayiə dəvəran edir [gəzir] ki, Etilaf hökumətləri bolşeviklərlə mübarizə edən bütün firqələrlə müzakirədən sonra qət etmişlər mərkəzi bir Rusiya Cümhuriyyəti təsis edərək ayrılmış başqa-başqa hökumətləri işbu mərkəzə ilhaq etsinlər və gələcək rəisi-cümhurun [dövlət başçısının] kim olacağı məsələsi də məhəlli-müzakirəyə qoyulmuş [müzakirəyə çıxarılmış] imiş. Əvvəllər Kerenskinin namizədliyi təklif edilsə də, burjuaziya tərəfindən rədd edilmişdir. Kerenski Amerikaya gedib təbliğat yapmaq layihəsindən vaz keçmişdir. Ehtimal ki, Kerenski Arxangelskə qayıdıb hökumətdə bir yer tutana kimi orada qalacaqdır."

**Şimali Qafqaziyada**

Şimali Qafqaziyadan Tiflisə gələnlərin dediyinə görə, Kislovodsk Kuban kazakları tərəfindən işğal edilmiş, Pyatiqorsk isə hələlik bolşeviklər əlindədir. Buraya Andjiyevski nam [adlı] bolşevikin təhti-komandasında [komandanlığı altında] qoşun qitəsi [hissəsi] gəlmişdir. Bu şəxs məhəlli [yerli] qırmızı qvardiyanı qovub ərkani-hərbini [baş qərargahını] isə güllələtmişdir. Qırmızı qvardiya komandanı Bilenkoviçi həbsə almışdır. Qırmızı qvardiya zabitanını [zabitlərini] şiddətlə təqib edirlər. Bunları qətldən müqəddəm [öldürmədən əvvəl] gözlərini çıxarır, dillərini belə kəsirlər. Kislovodskda qırmızı tədhiş [terror] elan edilmişdir.

**Ermənistanda**

"Orizon" qəzetəsinə İrəvandan xəbər verilir:

"Təşrini-əvvəlin [oktyabrın] 5-ində Türkiyə Hökumətinin Qafqaziya Ordusu Baş komandanı Xəlil paşa həzrətləri İrəvana varid olmuş [çatmış], həman gün də Təbrizə azim olmuşdur [getmişdir]. Xəlil paşanın əzimətindən [gedişindən] sonra Türkiyə hərbi anbarlarından, bir ay bundan irəli komandan tərəfindən erməni hökumətinə vəd edilmiş olan 12 min pud buğdanın verilməsi barəsində əmr verildi."

Bununla bərabər xəbər gəlmiş ki, Türklər Qarakilsə ilə Lorini təxliyə edərək erməni hökumətinə işbu yerləri təhvil götürməsi təklif edilir. Təşrini-əvvəlin 3-ündə katolikos İrəvana gəlmişdir. Katolikos türk səfiri Məhməd Əli paşanı ziyarət etmişdir. Paşa katolikosu məmnuniyyətlə qəbul edərək şərəfinə bir ziyafət vermişdir.

"J. D." qəzetəsinin xəbərlərinə görə, Türkiyə Hərbiyyə nazirinin əmri mövcibincə [əsasında] Azərbaycan Hökumətinə təklif edilmişdir ki, Ermənistandakı qaçqınlara 90 min pud buğda buraxlsın.

**Satılır**

Yatacaq, qonaq, xörək odalarından [otaqlarından] ibarət və qeyri gözəl müxəlləfat [ev əşyaları], xalı və pərdələr satılır.

Ünvan: Vrangelski və Persidski caddələrin küncündə Budaqovun evi. Nömrə 7/10, otaq nömrə 5. İkinci mərtəbədə. Görmək mümkündür saat 2-dən 8-ə kimi.

*225*

**Diş həkimi Melçarski**

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

*210 12-3*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216 25-4*

**Diş müalicəxanası**
**S. M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208 5-3*

**Müsəlman diş təbibəsi Ayna xanım**

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

*213 12-6*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Morskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209 12-4*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215 25-5*

Səadət mədrəsəsi bununla ümuma elan edir ki, şöbə və siniflərə ərizələr qəbul olunur və təşrini-saninin [noyabrın] birindən etibarən mədrəsələrdə dərslər başlanacaqdır. İdarə açıqdır səhər saat 9-12-yədək. Adres: Suraxanski soqaq,nömrə 197. "Səadət" idarəsi.

*227*

**Satıram**

Hamı dəmiryollarına cövhər, neft, mazut və yağ vaqonlarına dublikatlar.

Bakı Hacı-Turxan neft şirkəti kantoru. Qorçakovski caddədə Kontrol pereulokunun [döngəsinin] küncündə, nömrə 17-3. Telefon nömrə: 12-08.

*229*

Bu günlərdə Üçüncü Ünas [qız] eda-diyəsində (gimnaziya) türk dilində əlifba, birinci və ikinci ehtiyat sinifləri açıldığından, arzu edənlər ərzihal [ərizə] təqdim etməkdə müsariət etsinlər [tələssinlər].

Məktəbin dəftərxanasında hər gün saat 10-dan 2-yə qədər ərzihal qəbul edilir.

*226*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Sülh qarşısında***

*"Bu mülahizə ilə də ufaq millətlərin müqəddəratı məsələsi sülh konfransının iştiğal edəcəyi...": Qəzetdə "iştiğal" yerinə səhvən "işğal" getmişdir.*

***Sülh ətrafında:***
***Almaniyanın Vilsona notası***

*"Təxribat həmişə geri çəkilməyi örtməkdən ötrü lazım olmaqla bərabər, beynəlmiləl hüququnca da bu mənada qullanılır.": Bu cümlə bir az qarışıq və anlaşılması çətindir. Qoşunların geri çəkilərkən, düşmənin irəliləməsini çətinləşdirmək məqsədi ilə, keçdiyi yerlərdə dağıntılara yol verməsinə haqq qazandırılır və bu hərəkətin beynəlxalq hüquqa zidd olmadığı deyilir.*

***Nəzarətlərdə***

*"Azərbaycan Cümhuri Hökuməti 1919-cu il üçün hökumət siyahısı...": burada söhbət büdcədən gedir.*

***Ruşən Əşrəf bəyin şərəfinə ziyarət***

*"Yay klubu": Bakıda, hal-hazırda Azərbaycan Dövlət Filarmoniyasının yerləşdiyi bina.*

*"İncə saz taqımı [heyəti]": klassik türk musiqisi ifa edən, kamança, ney, tənbur, ud, qanun və sair alətlərdən və müğənnilərdən ibarət musiqi heyəti.*

*"Cavan şairimiz Cavad əfəndi öz nitqində pək doğru olaraq...": burada şair Əhməd Cavad nəzərdə tutulur; "öz nitqində pək doğru olaraq" yerinə qəzetdə "pək doğru öz nitqində olaraq" getmişdir.*

*"Dəyirmən" şeiri (səh. 394-395) üçün lüğət*

*"dəyirmən": dəyirman.*

*"qulübə": daxma.*

*"izbə": alçaq tavanlı, işıqsız yer.*

*"cam": pəncərə.*

*"qoca": böyük.*

*"civarında": yanyörəsində.*

*"düşmək": yıxılmaq.*

*"ötüşmək": civildəşmək.*

*"üşmək": toplaşmaq.*

*"ötədən": uzaqdan.*

*"muttasıl" (müttəsil): daima.*

*"qaval": tütək.*

*"ufalamaq": öyütmək, xırdalamaq.*

*"furun": soba.*

***Dəyirmən***

*"Düşünməz heç gec, erkən": Bu misra qəzetdə belə getmişdir: "Düşünməz heç kim, erkən". Şeirin Türkiyədəki nəşri əsas alınaraq, misra düzəldildi. (Bax. "Tələbə dəftəri" uşaq jurnalı, cild 2, sayı 32, səh. 516.)*

***Sağalmaz yaralarımız***

*"tiqel" (almanca: tiegel, rusca: тигель): müxtəlif metalları əritmək üçün istifadə olunan, odadavamlı qab, buta.*

*Amazasp: "Daşnaksutyun" partiyasının liderlərindən, erməni qatil və terrorist Hamazasp Srvandzyan nəzərdə tutulur.*

***Bir zıya***

*"18 mart hadiseyi-müəssifəsindən...": ermənilərin Bakıda və eləcə də Azərbaycanın başqa yerlərində Azərbaycanlılara qarşı törətdikləri soyqırımı (Mart soyqırımı) nəzərdə tutulur. Qətliamlar 30 mart – 2 aprel 1918-ci il tarixləri arasında davam etmiş, əsas qırğın Bakıda 31 martda (köhnə təqvimlə 18 mart) başlamışdır.*

***Xarici xəbərlər:***
***Leninə suiqəsd***

*"L. V. Q.": "Leyptsiqskaya veçernyaya qazeta" (Лейпцигская вечерняя газета) [Leipziger Abendzeitung] nəzərdə tutulur. Bax. "Leypsiqer abendzeytunq".*

***Xarici xəbərlər:***
***Ermənistanda***

*"...Qafqaziya Ordusu Baş komandanı Xəlil paşa həzrətləri...": Qafqaz İslam Ordusunun komandanı Nuri paşa idi. Qafqaz İslam Ordusu Türkiyənin Şərq Ordular Qrupunun tərkibinə daxil idi. Şərq Ordular Qrupunun Baş komandanı Xəlil paşa (Xəlil Qut) idi.*

*"J. D.": "Joxovrdi dzayn" (Xalqın səsi) adlı erməni qəzeti nəzərdə tutulur.*

# İdmançılarımızın daha bir uğuru

## Qadın şahmatçılarımız Avropa çempionatının mükafatçıları oldular

Azərbaycan şahmatçıları, beynəlxalq qrossmeysterlər Günay Məmmədzadə və Ülviyyə Fətəliyeva Çexiyanın paytaxtı Praqada başa çatan qadınlar arasında Avropa çempionatında müvafiq olaraq gümüş və bürünc medal qazanıblar.



Günay Məmmədzadə İsveçrə sistemi üzrə keçirilən yarışın sonuncu - 11-ci turunda Aleksandra Maltsevskaya (Polşa) ilə üz-üzə gəlib. Ağ fiqurlarla oynayan 22 yaşlı şahmatçımız matçın 43-cü gedişində rəqiblə heç-heçəyə razılaşıb.

Ülviyyə Fətəliyeva isə son turda "ağlar"la milli komandamızın digər üzvü Gülnar Məmmədovanı məğlubiyyətə uğradıb.

Yekunda hər iki şahmatçı xallarını 8-ə çatdırıb. Ermənistanlı Lilit Mkrtçyan və Rumıniya təmsilçisi İrina Bulmaqa da analoji nəticə ilə yarışı başa vurublar. Lakin əlavə göstəricilərdə üstün olan Günay Məmmədzadə ikinci, Ülviyyə Fətəliyeva isə üçüncü yeri tutublar.

123 şahmatçının iştirak etdiyi bu yarışın qalibi polşalı beynəlxalq qrossmeyster Monika Soçko olub. O, 8,5 xalla Avropa çempionu adına layiq görülüb.

Qeyd edək ki, indiyə qədər qadın şahmatçıların fərdi Avropa çempionatında Azərbaycanın heç bir təmsilçisi medal qazanmayıb. İki təmsilçimizin mükafatçılar sırasında yer alması Azərbaycan şahmatının tarixi uğurudur.

Yeri gəlmişkən, Praqada hərəyə 7 xal toplayan Gülnar Məmmədova, Gövhər Beydullayeva və Xanım Balacayeva ilk iyirmiliyə daxil olublar.

Günay Məmmədzadə qadınlar arasında ikiqat Azərbaycan çempionu, yeniyetmələr arasında dünya (10 yaş qrupunda) və ikiqat Avropa (8 yaşadək və 14 yaşadək) çempionudur. 2016-cı ildən qadınlardan ibarət Azərbaycan yığmasının üzvüdür və milli komandanın heyətində Olimpiada (2016, 2018, 2022), dünya (2017, 2021) və Avropa (2017, 2019, 2021) çempionatlarının iştirakçısı olub. 14 yaşında ikən Günay qadınlar arasında beynəlxalq qrossmeyster adına yiyələnmiş və bununla da Azərbaycan qadın şahmatı tarixində belə gənc yaşda bu ada layiq görülmüş ilk şahmatçı olmuşdur.

İstedadlı şahmatçı 2007, 2008 və 2009-cu illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi "İlin ən yaxşı şahmatçısı" nominasiyasında birinci yeri tutub. 2009-cu ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən "Yaxşıların yaxşısı" nominasiyasının, 2012-ci ildə "İlin ən yaxşı qız şahmatçısı" nominasiyası üzrə respublika müsabiqəsinin qalibi olub.

Gəncə şahmat məktəbinin yetirməsi Ülviyyə Fətəliyeva 2010-cu ildə Gürcüstanın Batumi şəhərində keçirilən 14 yaşadək şahmatçılar arasında Avropa çempionatında bütün rəqiblərini üstələyərək birinci olub. Növbəti il 20 yaşlı qızlar arasında Azərbaycan çempionu adını qazanıb.

2014-cü ildə Batumidə təşkil olunmuş 18 yaşadək şahmatçılar arasında Avropa çempionatında qızıl medal qazanıb. 2017-ci ildə qadınlar arasında Azərbaycan birinciliyində gümüş medala layiq görülüb. Həmin il Ülviyyə həmçinin Azərbaycanın "Odlar Yurdu" komandasının heyətində Türkiyənin Antalya şəhərində keçirilmiş klub komandaları arasında Avropa Kubokunda gümüş medal qazanıb.

Ülviyyə Fətəliyeva qadınlardan ibarət şahmat üzrə Azərbaycan yığmasının heyətində dünya (2017) və Avropa çempionatlarının (2015, 2017) iştirakçısı olub. Bundan əlavə o, 2016-cı ildə Bakıda keçirilmiş 42-ci Ümumdünya Şahmat Olimpiadasında Azərbaycanın ikinci komandasının heyətində mübarizə aparıb.

Dünən Beynəlxalq Şahmat Federasiyası sentyabrın 1-nə olan Elo reytinqlərini açıqlayıb. Qadın şahmatçıların reytinq cədvəlində Günay Məmmədzadə 21-ci (2473), Ülviyyə Fətəliyeva 45-ci (2408), Gülnar Məmmədova 73-cü (2382) pillədə qərarlaşıblar. Xanım Balacayeva da (75-ci yer, 2379) ilk 100-lükdə yer alıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*




# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# Koronavirus təhlükəsi səngimir

## Payız fəsli yaxınlaşdığından ölkəmizdə də yoluxma sayının çoxalması istisna edilmir

**Koronavirus öz təsirini qorumaqla yanaşı, hələ də yoluxuculuq qabiliyyətinə görə dünyada təhlükə yaratmaqda davam edir. Hazırda səhiyyə qurumlarının əsas hədəfi "Omikron" ştamının əsas iki subvariantının yoluxuculuğunu azaltmaqdır. Çünki bu altnövlər COVID-19-un indiyə qədər ən yoluxucu variantları hesab edilir.**



### Yeni peyvəndin tətbiqinə başlanılacaq

Bir müddət əvvəl "Omikron"un BA.4 və BA.5 növlərinə qarşı peyvənd hazırlanmışdı. Bu vaksinlərin tətbiqinə isə həftəsonundan etibarən ilk dəfə olaraq Amerikada başlanılacaq. Mütəxəssislər bu peyvəndi amerikalılar üçün olduqca mühüm hesab edirlər. Belə ki, payız və qışda arta biləcək yoluxmalara qarşı yeni peyvəndin vurulması nəticəsində təhlükənin qarşısının alınacağını proqnozlaşdırırlar.

Qeyd edək ki, hazırda ən çox yoluxmaların müşahidə edildiyi ölkə də elə Amerikadır. Burada əhalinin üçdəikisindən çoxu tam peyvənd olunsa da, yalnız üçdəbirindən az hissəsi gücləndirici doza vaksini vurdurub. Buna görə də qışda yoluxanların sayının və ölüm hallarının daha da artmaması üçün gücləndirici dozada vaksinlərin tətbiqi əsas şərt hesab edilir.

"Pfizer" şirkətinin yeni peyvəndi 12 yaş və daha yuxarı insanlar üçün icazə verilən 30 mikroqramlıq dozada, "Moderna"nın peyvəndi isə 18 və yuxarı yaş həddində olan insanlara vurula bilən 50 mikroqramlıq dozadadır.

### Dünyada tibb müəssisələrinin yarısında dezinfeksiya vasitələri yoxdur

COVID-19-la mübarizədə vaksinlər kimi, gigiyenik vasitələrin də istifadəsi bir o qədər önəmlidir. Ümumdünya Səhiyyə Təşkilatı və UNICEF-in birgə açıqlamasında bildirilib ki, dünyada səhiyyə müəssisələrinin yarısında tibb kabinetləri və ayaqyolunda su, sabun və spirt əsaslı dezinfeksiya vasitələrinə rast gəlinmir. Qeyd edilib ki, 3,85 milyard insanın tibbi yardım üçün müraciət etdiyi səhiyyə müəssisələrinin yarısında əsas gigiyena xidmətləri yoxdur, buna görə də yoluxma halları böyük risk təşkil edəcək qədər artıb. Eyni zamanda 688 milyon insan, ümumiyyətlə, gigiyena xidmətləri göstərilməyən klinika və tibb məntəqələrində müalicə olunur.

Məlumatda o da nəzərə çatdırılır ki, Saxaradan cənubda yerləşən Afrika ölkələrində əllərin yuyulması üçün sabun və su tibb müəssisələrinin yalnız 37 faizində var. Latın Amerikası və Karib hövzəsi, eləcə də Cənub-Şərqi və Şərqi Asiya dövlətlərində sanitar xidmətlər klinikaların və tibb məntəqələrinin 3 faizində, Saxaradan cənubda yerləşən ölkələrin isə 22 faizində tamamilə yoxdur.

ÜST-ün Ətraf mühit və sağlamlıq məsələləri departamentinin direktoru Mariya Neyra bildirib ki, gigiyenanın yaxşılaşdırılması koronavirus pandemiyasının bitməsi, eləcə də digər yoluxucu xəstəliklərin qarşısının alınması üçün son dərəcə əhəmiyyətlidir. O vurğulayıb ki, bu vəziyyət səhiyyə müəssisələrinin diqqətində olmalı və gigiyenanı təmin etmək üçün lazımi tədbirlər görməlidirlər.

### Tövsiyələrə əməl etmək hər kəsin vacib işi olmalıdır

Payız fəsli yaxınlaşdığından ölkəmizdə də virusa yoluxmada artımın gözlənilməsi istisna edilmir. Xüsusilə müəyyən məhdudiyyətlər aradan qaldırıldıqdan sonra insanların xəstəliyə biganə yanaşaraq mübarizə tədbirlərini arxa plana keçirmələri hazırda müşahidə edilən hallardandır. Lakin unudurlar ki, ani bir vaxtda yoluxma halları artarsa, bu məsuliyyətin daşıyıcıları bütün vətəndaşlar olacaq.

Mütəxəssislər qeyd edirlər ki, tövsiyələrə əməl etmək hər kəsin vacib işi olmalıdır. Qapalı və insanların sıx olduğu məkanlarda tibbi maskalardan istifadə etməklə, tez-tez əlləri yumaqla, dezinfeksiyaedici vasitələrlə bakteriya və viruslardan qorunmaq lazımdır. Vətəndaşlar vaksin olunmaqla həm öz immunitetlərini gücləndirər, həm də kütləvi immunitetin formalaşması üçün yardımçı ola bilərlər.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*







# Azərbaycan Velosiped Federasiyası daha bir yeniliyə imza atıb

Azərbaycan Velosiped Federasiyası (AVF) daha bir yeniliyə imza atıb. Qəhrəmancasına döyüşərək torpaqlarımızın işğaldan azad edilməsində əvəzsiz xidmətlər göstərmiş qazilərin və müharibə iştirakçılarının fiziki reabilitasiyası, idmanla məşğul olmaları, eləcə də bu fədakar və iradəli insanların təcəssümündə cəmiyyətdə sağlam həyat tərzinin təbliği məqsədilə federasiya rəhbərliyinin qərarına əsasən, AVF-də Qazilərlə iş bölməsi yaradılıb.

AZƏRTAC federasiyaya istinadla xəbər verir ki, bölməyə ictimai əsaslarla rəhbərlik Müdafiə Sənayesi Nazirliyinin məsul əməkdaşı, Vətən Müharibəsi Qəhrəmanı Qəzənfər Ağayevə həvalə olunub.

Yeni struktur qazilər və müharibə iştirakçıları ilə yaxından əməkdaşlıq edəcək, onların AVF-nin imkanlarından geniş bəhrələnərək velosiped idmanı ilə məşğul olmaları, həmçinin fiziki sağlamlıqlarının bərpası, asudə vaxtlarının səmərəli təşkili üçün yarışlar, yürüşlər və s. tədbirlər keçirəcək.

İlk belə tədbirin keçirilməsi 27 sentyabr - Anım Günü ərəfəsində qazilərin velosiped yürüşü ilə nəzərdə tutulur.

# Sentyabrın 5-8-də xəzri küləyinin güclənəcəyi, arabir yağış yağacağı proqnozlaşdırılır

Sentyabrda havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağı gözlənilir. Aylıq yağıntının miqdarı əsasən iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı ehtimal edilir.

Sentyabrın ilk günlərində ölkə ərazisində hava şəraitinin sabit, əsasən yağmursuz keçəcəyi, lakin sentyabrın 5-8-də xəzri küləyinin güclənəcəyi, arabir yağış yağacağı proqnozlaşdırılır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 20-24° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturu gecələr 17-22°, gündüzlər 24-29° isti, ayın ilk günlərində 33-36° isti olacağı ehtimal edilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimalı var (norma 12-23 millimetr).

Naxçıvan Muxtar Respublikasında havanın orta aylıq temperaturunun 21-24° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 15-20°, gündüzlər 25-30° isti, ayın ilk günlərində 33-38° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı bildirilir (norma 7-13 millimetr).

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında havanın orta aylıq temperaturu 14-18° isti olacaq. Bu da iqlim norması daxilindədir. Havanın temperaturunun gecələr 9-14°, gündüzlər 16-21° isti, ayın ilk günlərində 23-28° isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın olacaq (norma 34-50 millimetr).

Gəncə şəhərində, Qazax, Ağstafa, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın orta aylıq temperaturunun 20-23° isti olacağı proqnozlaşdırılır ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturu gecələr 16-21°, gündüzlər 23-28° isti, ayın ilk günlərində 32-36° isti olacaq. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir (norma 17-44 millimetr).




Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın orta aylıq temperaturunun 16-21° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 14-19°, gündüzlər 20-25° isti, ayın ilk günlərində 29-34° isti olacağı bildirilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı proqnozlaşdırılır (norma 33-120 millimetr).

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturunun 22-24° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 16-21°, gündüzlər 24-29° isti, ayın ilk günlərində 33-38° isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacaq (norma 14-38 millimetr).

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın orta aylıq temperaturunun 18-23° isti olacağı ehtimal edilir. Bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 15-20°, dağlarda 9-14°, gündüzlər 23-28° isti, ayın ilk günlərində 30-35° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 50-199 millimetr).

**Sabunçu rayonu 310 saylı tam orta məktəb tərəfindən 2017-ci il tarixdə Nihad Zaur oğlu Quluzadənin adına verilmiş E 016077 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Quba rayon hərbi komissarlığı tərəfindən Adil Hacıbaba oğlu Seyidovun adına verilmiş 25 sentyabr 2001-ci il tarixli 064371 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Hacı Ağaməmməd Məmmədov, Qambay Muradov, Cavid Əsədov, Abid Əliyev, Rüstəm Rüstəmov, Ayaz Qasımov, Səttar Vəliyev, Elxan İlyasov və Rafiq Hüseynov ehtiyatda olan polkovnik Əlikram Qasımova əzizi

**MEHMAN AĞAN OĞLU SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6461
Sifariş 2451
Qiyməti 40 qəpik